Bu bir xalq qəzetidi

ƏDALƏT

## Azad edilmiş ərazilərdə daha bir hərbi hissənin açılışı oldu

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin hərtərəfli təminatı, qoşun xidmətinin təşkili və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər davam edir.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib. Şəxsi heyətin xidməti və döyüş fəaliyyətinin təşkili, eləcə də məişət şəraitinin təmin edilməsi məqsədilə Ağdam rayonu ərazisində müasir avadanlıqla təchiz olunmuş müxtəlif təyinatlı qurğulardan ibarət modul tipli növbəti iki hərbi hissə istifadəyə verilib. Birlik komandiri general-mayor Hikmət Həsənov açılış münasibətilə Müdafiə nazirinin təbriklərini şəxsi heyətə çatdırıb, onlara xidmətlərində uğurlar arzulayıb. Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

Qeyd edək ki, döyüş növbətçiliyi və qoşun xidmətinin yüksək səviyyədə təşkili və aparılması məqsədilə modul tipli komplekslərdəki xidməti otaqlar kondisionerlər, mebellər, müasir tipli sanitar qovşaqları, yataq ləvazimatları, mətbəx avadanlıqları və generatorlarla təchiz olunub. Azad olunmuş digər ərazilərimizdə yeni hərbi hissələrin tikintisi planlı şəkildə davam edir.

## Milli Məclisdə qazi atasına vəzifə verildi



**Milli Məclisin Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinə yeni müdir müavini təyin olunub.**

Adalet.az-ın məlumatına görə, parlamentin Sədri Sahibə Qafarovanın imzaladığı sərəncama əsasən, əvvəllər sözügedən şöbədə sektor müdiri vəzifəsində çalışan Eldar İsmayıl oğlu Əsgərov həmin vəzifəyə təyin olunub. Qeyd edək ki, E.Əsgərov ötən ilin sentyabrında könüllü olaraq Vətən müharibəsinə yollanan igidlərimizdən biri olan Sabir Əsgərovun atasıdır.

## *Səmayə Məmmədova Gənclər və İdman Nazirliyindəki vəzifəsindən ayrılıb*



**Gənclər və İdman Nazirliyinin mətbuat katibi Səmayə Məmmədova nazirlikdəki vəzifəsindən ayrılıb.**

Adalet.az xəbər verir ki, bu barədə onun özü məlumat yayıb.

S.Məmmədova bildirib: "21 may 2021-ci il tarixdə öz istəyimlə 14 il ərzində mətbuat katibi olaraq fəaliyyət göstərdiyim Gənclər və İdman Nazirliyindən ayrılmışam. Rəsmi iş məzuniyyəti bitdikdən sonra nazirliyə qayıtmayacam. Bundan sonrakı dönəmdə də hər kəsə böyük uğurlar, can sağlığı arzu edir, bir daha nazirliyin fəaliyyətində göstərdiyiniz dəstək və dostluğunuz üçün təşəkkürümü bildirirəm!".

## *Rəsmi Bakı Ermənistanı təxribatlara son qoymağa çağırdı*



**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 1 iyun 2021-ci il tarixində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər rayonunun Armudlu kəndi istiqamətində növbəti təxribatının qarşısı alınıb. Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən Adalet.az-a verilən məlumata görə, 40-a yaxın şəxsi heyətlə Azərbaycan ərazisinə daxil olan erməni silahlı qüvvələri Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin dərhal və silah tətbiq etmədən həyata keçirdiyi tədbirlər nəticəsində ölkəmizin ərazisindən çıxarılıb. "Ermənistan tərəfinin iki dövlət sərhədində davamlı təxribatlara əl atması bu ölkənin məqsədyönlü şəkildə bölgədə vəziyyətin gərginləşdirilməsinə xidmət edən addımlar atdığını nümayiş etdirir. Tərəfimizdən bu kimi təxribatların yolverilməzliyini bir daha vurğulayır və sərhəd məsələsində mövcud olan fikir ayrılıqlarının yalnız danışıqlar yolu həllinin vacibliyini vurğulayırıq. Azərbaycan iki dövlət sərhədinin delimitasiya və demarkasiya prosesinin başlanmasının tərəfdarıdır. Ermənistanı beynəlxalq hüquq prinsiplərinə riayət etməyə, əsassız şəkildə sərhəd məsələsində gərginliyi artırmaqdan çəkinməyə və sərhəd məntəqəsində təxribatlara son qoymağa çağırırıq", - deyə məlumatda vurğulanıb.**

## Sahibə Qafarova Pakistanda Mustafa Şentopla görüşdü



**Milli Məclisin sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Pakistanda keçirilən İkinci Ümumi Konfransı çərçivəsində Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopla görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlıq, siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə münasibətlərin dərinləşməsi, parlamentlərarası əlaqələrin gələcək inkişaf istiqamətləri barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı iki qardaş ölkənin spikerləri regional əməkdaşlığın əhəmiyyətini qeyd ediblər.

TBMM sədri Mustafa Şentop 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi möhtəşəm Qələbə münasibətilə bir daha təbriklərini çatdırıb.

Milli Məclisin sədri Sahibə Qafarova öz növbəsində Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə Türkiyə tərəfinə minnətdarlığını ifadə edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***CANIM OPERATİV QƏRARGAH,***
***GÖZÜM OPERATİV QƏRARGAH***
***OPERATİV QƏRARGAH,***
***İNCİTMƏ BU CAVANLARI...***



***Qoy toylarını eləsinlər, qoy sevinsinlər, gəlinlik, bəylik paltarını geysinlər. Qızlarımız "Gəlin atlandı" havasının sədaları altında gəlin köçsünlər.***

***Barı, heç olmasa icazə ver o 60-70 nəfər sərnişin tutan avtobuslarda toy eləsinlər.***

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 57 (5889) 3 iyun 2021-ci il | Qiyməti 30 qəpik

# Düşmən ərazimizdə mövqe qurmaq istədi

**İyunun 1-i saat 20.00 radələrində Ermənistan silahlı qüvvələri təqribən 40 nəfərə yaxın şəxsi heyətlə Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Armudlu kəndi istiqamətində 400 metr Azərbaycan ərazisinə daxil olub və 40 dərəcə 04 dəqiqə 30 saniyə şimal enliyi, 45 dərəcə 54 dəqiqə 42 saniyə şərq uzunluğu (N 40°04`30"; E 45°54`42") coğrafi koordinatlarında mövqe tutublar. Adalet.az xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti birgə məlumat yayıb. Azərbaycan Respublikasının silahlı qüvvələrinin dərhal həyata keçirdiyi tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələri ölkəmizin ərazisindən çıxarılıb. Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin ölkəmizin ərazisindən çıxarılması zamanı silahlı qüvvələrimiz tərəfindən silah tətbiq edilməyib.**



**Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ərazisinə müdaxiləsi növbəti təxribatdır və bunun məsuliyyəti tam şəkildə Ermənistan tərəfinin üzərinə düşür. Baş verən hadisə bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyətin və Azərbaycan tərəfinin sərhəd məsələlərinin danışıqlar və dialoq yolu ilə həll edilməsi ilə bağlı çağırışlarına zidd olaraq Ermənistan iki ölkənin dövlət sərhədi boyunca vəziyyəti gərginləşdirmək məqsədini güdür.**

**Azərbaycan Respublikasının dövlət sərhədlərinin pozulması və ölkəmizin ərazisinə Ermənistan silahlı qüvvələrinin müdaxiləsi hallarının qarşısı bundan sonra da qəti tədbirlər vasitəsilə alınacaq. Ermənistan məsuliyyətli davranmalı, qonşu dövlətlərin sərhədlərinə və ərazi bütövlüyünə hörmət etməli və regionda vəziyyəti gərginləşdirə biləcək təxribatlardan çəkinməlidir.**

## Məscidlərə yalnız COVID pasportu olanlar buraxılacaq



**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) COVID-19 pandemiyası ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri əsasında məsciddə və digər ibadət yerlərində riayət olunmalı qaydaları açıqlayıb.**

QMİ-nin mətbuat xidmətindən Adalet.az -a verilən məlumata görə, məscid və digər ibadət yerləri bədən hərarətini ölçən termometr, dezinfeksiya məhlulu və ehtiyat tibbi maska ilə təmin olunmalı, hər kütləvi ibadətdən sonra ibadət yerlərində hökmən dezinfeksiya - sanitar tədbirlər həyata keçirilməli və mütəmadi havalandırma təmin edilməlidir.

İbadət yerlərinə daxil olan şəxslərin COVID-19 pasportu və temperaturu yoxlanılmalı, bədən temperaturu norma daxilində olan və COVİD-19 pasportuna malik olan şəxslər içəri buraxılmalı və onların tibbi maska ilə təmin edilməsinə və onların sayının müvafiq normalara uyğunluğuna ciddi nəzarət edilməlidir.

## QUDURASAN HOLLANDİYA BAŞLAYASAN AZƏRBAYCANI TUTMAĞA



*Adını dəyişib Niderland qoysan da, Hollandiyasan ki, Hollandiya.*

*Bunlar da bizdən erməni terrorçularını buraxmağı tələb edir.*

*Gedin öz dərdinizi çəkin, bilirsiniz də dünya Hollandiyanı necə tanıyır? Gedin filanınızın dərdini çəkin.*

## *XALQIMIZA ŞAD XƏBƏR*

**Aİ-95 markalı benzinin qiyməti 1 manat 25 qəpikdən 1 manat 40 qəpiyə qalxdı.**



## Ukraynadan Belarusa xəbərdarlıq

**Belarus "Belavia" aviaşirkətinin təyyarələri Krım ərazisində uçuş həyata keçirərsə, Ukraynanın sanksiyaları qaçılmaz olacaq.**

Bu sözləri Ukrayna Xarici İşlər nazirinin müavini Emine Caparova deyib.

Qeyd edək ki, daha öncə Belarus Prezidenti Aleksandr Lukaşenko rusiyalı həmkarı Vladimir Putinlə görüşündə Krıma uçuşlarla bağlı hazırlıq görüləcəyini bildirmişdi.

## *Rusiyada koronavirusun müalicəsində yeni dərman istifadə ediləcək*



***Rusiyada inhalyasiya dərmanı "Leytragin" koronavirusun gedişatını çətinləşdirən sətəlcəmin müalicəsi və qarşısının alınması üçün istifadə ediləcək. Rusiyanın Federal Tibbi və Bioloji Agentliyinin (FMBA) saytında bu barədə məlumat yerləşdirilib.***

***Dərman mayın sonunda bu məqsədlə istifadə üçün qeydiyyata alınıb.***

***2020-ci ilin avqust ayında "Rospatent" "Leytragin" dərmanının inkişafı çərçivəsində FMBA-ya üç patent verib.***

## *"Tövlədə saxlanılan qadın ruhi xəstədir"*

**Tövlədə bağlanaraq saxlanılması haqqında video yayılan 1934-cü il təvəllüdlü Səkinə Həsənova ruhi əsəb xəstəsidir.**

Bunu Azvision.az -a açıqlamasında Gədəbəy rayonu, İvanovka kəndinin icra nümayəndəsi Bahəddin Tağıyev deyib. Onun sözlərinə görə, 87 yaşlı qadınla bağlı hüquq-mühafizə orqnaları tərəfindən araşdırma aparılır:

"Qadın ruhi xəstədir, nitq qüsurludur. Ailə qurmayıb. Əslən Daşkəsəndəndir. Əvvəl bacısının yanında qalırdı. Bacısı rəhmətə gedəndən sonra bibisi oğlu Hacıyev Qəzənfərin evində qalıb. Qadın qüsurludur, özünü idarə edə bilmir. Hazırda polis tərəfləri dindirir, araşdırma gedir. Nəticəsi barədə məlumat veriləcək".

Qeyd edək ki, sosial şəbəkələrdə ahıl qadının tövlədə bağlanaraq saxlanılmasına dair görüntülər yayılıb. Gədəbəy rayon Polis Şöbəsinin əməkdaşları müvafiq araşdırmalar aparıb. Həmin qadının Daşkəsən rayonunda qeydiyyatda olmaqla Gədəbəy rayon İvanovka kəndində yaşayan, 1934-cü il təvəllüdlü Səkinə Həsənova olması müəyyən edilib.

## *GÜNÜN SÖZÜ*

***Robert Köçəryan: "Nikol Paşinyan kapitulyasiya aktını imzalayandan sonra nə qədər pampers dəyişib, bilmirəm. İndi çıxıb kişilikdən danışır".***

## *BİZİM SÖZÜMÜZ*

***44 günlük müharibədə darmadağın olan erməni ordusunu Paşinyan deyil, siz və Sərkisyan yaratmışdı. Azərbaycan sizin ordunuzu çıxdığı deşiyə qədər qovdu. Və həmin dövrdə sizlər neçə dəfə şalvarınızı batırdınız?***

***Nə isə...***

## GÜNÜN STATUSU ƏZİZƏ İSMAYILOVADAN



**"Uşaqları kamera qarşısında pafoslu,ütülü-kraxmallı cümlələrlə danışmağa məcbur etməklə təmiz dünyalarına riyakarlıq toxumu səpmiş olursunuz… Niyə belə edirsiniz ki?**

Olmaz ki, öz saflıqları qədər danışsınlar?!"

## Bakı bulvarının bahalı istirahəti

Bax: səh.4

## *ERMƏNİ XALQI HƏLƏ DƏ ANLAMAQ İSTƏMİR Kİ...*



**Onları yenidən Azərbaycanla müharibə etməyə qızışdıranların (lobbilərin, xaricdəki diasporların, Fransa kimi kərtənkələlərin və sair və ilaxır) övladları deyil, müharibədə Ermənistanda və Qarabağda yaşayan bədbəxt erməni xalqının balaları olacaq.**

**Balalarınızı Dəmir Yumruğun altına göndərməyin.**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## FRANSA MİLÇƏK KİMİ ÜRƏK BULANDIRIR



*Paşinyan məlum olduğu kimi, Avropa turuna çıxıb və ilk əvvəl də böyük bacıları Fransanın prezidenti Makronla görüşüb. Və Makron da böyük bir ölkənin prezidenti ola-ola bilmədiyi, daha doğrusu, bilmədiyi yox ey, bilib, özünü bilməməzliyə qoyduğu məsələlərə toxunaraq Ermənistanın tərəfini saxlayıb. Özü də guya ATƏT- in həmsədr ölkəsidir və bitərəf olmalıdır.*

*Deyib ki, Azərbaycan ordusu Ermənistanın ərazilərindən çıxmalıdır. Bir qarış da Ermənistan ərazisində Azərbaycan əsgəri yoxdur. Əksinə, Azərbaycanın 10-a qədər kəndi hələ də erməni silahlı qüvvələrinin işğalı altındadı. Ermənistanın özünün ərazisi bizə məxsus olsa da, biz beynəlxalq qanunlara riayət edərək bütün dünyanın tanıdığı və qəbul etdiyi Ermənistan Respublikasının sərhədlərini pozmamışıq. Amma hələ də Ermənistan Silahlı Qüvvələri Azərbaycanın ərazisindədir.*

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ

İmtahan vaxtı professor gənc yazar Orxan Saffariyə:

**- Bir şərtim var, sənə bir çətin sual verim, yoxsa iki asan sual?**

Orxan:

**- Professor, bir çətin sual verin.**

Professor:



**- Yaxşı, de görüm meymun ilk dəfə harda yaranıb?**

Orxan:

**- Tarqovıda.**

Professor:

**- Niyə?**

Orxan:

**- Professor, şərtləşdik axı, bir sual.**

## Azərbaycanla Əfqanıstan arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

**İyunun 2-də Milli Məclisin Sədri Sahibə Qafarova İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransı çərçivəsində İslamabadda Əfqanıstan İslam Respublikası Milli Assambleyasının Xalq Palatasının Sədri Mir Rahman Rahmani ilə görüşüb.**

Adalet.az-ın məlumatına görə, söhbətdə Milli Məclisin Sədri Azərbaycan və əfqan xalqları arasında tarixən dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu söyləyib. Qeyd edib ki, Azərbaycan müstəqil-



lik əldə etdikdən sonra bu münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlib. İki ölkə arasında əlaqələrin dərinləşməsində dövlət başçılarının görüşləri və aparılan danışıqlar mühüm rol oynayıb.

Parlamentin Spikeri 44 günlük Vətən müharibəsi dönəmində, eləcə də artıq tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin bütün dövrlərində Əfqanıstanın Azərbaycanın haqlı mövqeyini birmənalı şəkildə dəstəkləməsindən razılıqla danışıb.

O qeyd edib ki, Əfqanıstanın dövlət strukturlarının, o cümlədən Milli Assambleyanın Ağsaqqallar Şurasının və Xalq Palatasının Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyən bəyanatları Azərbaycan tərəfindən yüksək qiymətləndirilir. Sahibə Qafarova həmkarına və Əfqanıstan xalqına bu haqlı mövqeyə və dəstəyə görə minnətdarlığını ifadə edib.

Milli Məclisin Sədri hər iki ölkənin parlamentində dostluq qruplarının fəaliyyət göstərməsinin qanunverici orqanlar səviyyəsində əlaqələrimizin inkişafı baxımından önəmini vurğulayıb.

Əfqanıstan İslam Respublikası Milli Assambleyasının Xalq Palatasının Sədri Mir Rahman Rahmani görüşdə bildirib ki, bu gün Əfqanıstanla Azərbaycan arasında siyasi münasibətlərlə yanaşı, həyatın digər sahələrində də əlaqələr yüksək səviyyədədir. Xalqlarımız arasında tarixən mövcud olan ənənəvi dostluq münasibətləri əməkdaşlığımızın dərinləşməsində əhəmiyyətli rol oynayır.

Parlamentlər səviyyəsində əlaqələrimiz də yüksələn xətlə inkişaf etməkdədir. Deputatların qarşılıqlı səfərləri, onların müxtəlif beynəlxalq qurumlar çərçivəsində mütəmadi görüşləri tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından önəmlidir. Qeyd edilib ki, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarda nümayəndə heyətlərinin bir araya gəlməsi regional layihələrin reallaşmasına təkan verə bilər.

**Söhbət zamanı beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlıq, parlamentlərarası əlaqələrin inkişafı, terrorizmə qarşı mübarizə və digər mövzularda fikir mübadiləsi aparılıb.**

## *Türkiyə Ali Məhkəməsinin Baş Prokuroru Gəncədə raket atəşinə tutulan ərazilərə baş çəkib*



**Türkiyə Respublikası Ali Məhkəməsinin Baş Prokuroru Bekir Şahinin başçılıq etdiyi nümayəndə heyəti bu gün Gəncə şəhərinə işgüzar səfər ediblər.**

Baş Prokurorluqdan Adalet.az-a verilən məlumata görə, nümayəndə heyəti xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Qonaqlar Nizami Gəncəvinin Məqbərəsini ziyarət edib, Məqbərədə yaradılan şəraitlə tanış olublar. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2021-ci ilin "Nizami Gəncəvi ili" elan olunduğu qonaqların diqqətinə çatdırılmaqla, dünya şöhrətli dahi Azərbaycan şairinin iris barədə heyət üzvlərinə ətraflı məlumat verilib.

Daha sonra nümayəndə heyəti Ermənistan silahlı qüvvələri tərəfindən Gəncənin raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə baş çəkib, qonaqlar günahsız mülki insanlara qarşı həyata keçirilmiş erməni hərbi cinayətlərinin nəticələri ilə yerində tanış olub.

Nümayəndə heyəti erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, dağılmış evlərin ətrafına gül düzüb.

Qonaqlara məlumat verilib ki, cəbhə zonasından kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin ümumilikdə 5 dəfə Ermənistan tərəfindən ağır artilleriya və raket zərbələri ilə atəşə tutulması barədə məlumat verilib. Bildirilib ki, raket hücumları nəticəsində Gəncənin tarixi və dini abidələri, təhsil və səhiyyə ocaqları da zərər görüblər.

Daha sonra qonaqlar Gəncə şəhər prokurorluğunun inzabati binasında yaradılmış şəraitlə tanış olmuş, onlara prokurorluğun fəaliyyəti ilə bağlı ətraflı məlumat verilib. Daha sonra qonaqların Göygöl Milli Parkına səfəri baş tutub. Əsrarəngiz gözəlliyə malik, nadir təbiət inciləri Göygöl və Maralgöl nümayəndə heyətinin böyük marağına səbəb olub. Qonaqlar gölün kənarında xatirə şəkilləri çəkdiriblər.

# "DÜNYA ƏHALİSİ VAKSİNLƏ ƏDALƏTLİ TƏMİN OLUNMALIDIR"

### Prezident İlham Əliyevin Ümumdünya Səhiyyə Assambleyasının 2021-ci il 31may tarixində keçirilmiş 74-cü sessiyasında çıxış edib

**Covid-19 koronavirusun yayılması ikə bağlı Ümumdünya Səhiyyə Təşkilatının dünya üzrə pandemiya elan etməsindən dərhal sonra Prezident İlham Əliyev aidiyyatlı təşkilatlara təcili tədbirlər görülməsi ilə bağlı göstərişlər verdi və bu bəlanın aradan qaldırılması üçün görülən tədbirləri şəxsən nəzarətə götürdü. Pandemiya ilə mübarizə işinin effektiv təşkili üçün ölkənin bütün imkanları səfərbər olunmuşdu.**



Sessiyada çıxışı zamanı Azərbaycan PrezidentiPandemiyanın iqtisadiyyata mənfi təsirinin azaldılması məqsədilə Azərbaycan hökuməti tərəfindən sistemli tədbirlər görüldüyünü bildird: ".COVID-in mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim edilmişdir. Pandemiya ilə mübarizənin hazırki mərhələsində əsas prioritet əhalinin vaksinasiyasıdır.Ölkəmizdə görülmüş müfəssəl tədbirlərnəticəsində karantin rejimi tədricən yumşaldılmışdır. Cari ilin yanvar ayının ortalarından etibarən peyvəndkampaniyasıbaşlanıb və artıq 99,94 faizi "Sinovak", qalanı isə "AstraZeneca" və "Sputnik" olmaqla, 2 milyon doza peyvənd istifadə edilib. Bu rəqəm əhalinin20 faizini təşkil edir. 18 yaşdan yuxarı bütün vətəndaşlar könüllü olaraq peyvənd oluna bilərlər. Peyvənd olunanlara COVID-19 pasportları təqdim edilir.Pandemiya ilə mübarizə işi ölkəmizdə planlı şəkildə aparılır. Pandemiyanın ilk günlərindən Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilmişdir. Qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxana inşa edilmişdir. Ölkədə COVID-xəstələrinin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının toplam sayı 10 mindən artıqdır".

Prezident çəxəşında bildirdi ki, Azərbaycan dünya əhalisinin vaksinlə ədalətli şəkildə təmin olunmasının tərəfdarıdır.Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir. Davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0,3 faizi azgəlirli ölkələrin payına düşmüşdür.

Pandemiyaya qalib gəlmək üçün qlobal həmrəylik strateji əhəmiyyət kəsb edir. Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində bir sıra qlobal təşəbbüslərlə çıxış etmişdir. Bu sırada Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısı və 2020-ci ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası ayrıca qeyd olunmalıdır.

"Azərbaycan pandemiya ilə mübarizədə qlobal çağırışlarla çıxış edən nadir ölkələrdəndir. Hazırda bəşəriyyətin qarşısında duran bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürmüş və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunmuşdur.Bu xüsusda, Azərbaycan inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırır.

**AzərbaycanÜmumdünya Səhiyyə Təşkilatıilə səmərəli əməkdaşlıq edir.AzərbaycanÜmumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən2021-ci ilin "Səhiyyə işçiləri ili" elan edilməsini alqışlayır.Azərbaycan ÜST ilə olduqca səmərəli əməkdaşlıq edir. Ötən il ÜST Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırmışdır. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir. Bununla yanaşı, koronavirusla əlaqədar 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərilmişdir".**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

**Qarabağda azərbaycanlı əsirlərə işgəncə vermiş və digər cinayətlər törətmiş erməni Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviçin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Adalet.az-ın məlumatına görə, Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən və zərərçəkən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmə hazırlıq iclasının qərarını qəbul etmək üçün müşavirəyə yollanıb.

# Qarabağda ələ keçən erməni cinayətkarların ilk məhkəmə iclası keçirildi

Məhkəmə müşavirəyə gedərkən, Azərbaycanın insan hüquqları üzrə müvəkkili(Ombsudman) Səbinə Əliyeva təqsirləndirilən şəxslərlə görüşüb, onların saxlanma şəraiti və səhhətləri ilə maraqlanıb.

Hakimlər müşavirədən qayıdaraq məhkəmə baxışını iyunun 9-na təyin edilib.

Qeyd edək ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində qanunsuz fəaliyyət göstərən erməni separatçı rejiminin silahlı birləşmələri və Ermənistan Respublikasının Silahlı Qüvvələri tərəfindən Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətləri ilə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə Hərbi Prokurorluqda cinayət işinin istintaqı zamanı əsirlərin və beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxslərin girov saxlanması, onlara işgəncə verilməsi, qəddar və qeyri-insani rəftar edilməsi faktları müəyyən olunub.

Belə ki, istintaqla müəyyən edilib ki, Ermənistan Respublikasının vətəndaşı, 1969-cu il təvəllüdlü Mkrtiçyan Lüdvik Mkrtiçoviç Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan, habelə Ermənistan Respublikasından gəlmiş millətçi ermənilərdən ibarət yaradılmış silahlı qrupların fəaliyyətində iştirak edib onlarla qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əlaqəsinə girərək 1991-ci ilin iyul ayında Xocalı şəhəri yaxınlığındakı "Ballıca" adlandırılan meşədə girov götürüb qanunsuz olaraq azadlığı məhdudlaşdırılan Azərbaycan vətəndaşına, habelə 13 sentyabr 1999-cu il tarixdə Goranboy rayonunun Tapqaraqoyunlu kəndi ərazisində girov götürülərək Ermənistan Respublikasının İrəvan şəhərinə gətirilmiş və həmin şəhərdə yerləşən hərbi hissələrin birində qanunsuz saxlanılan mülki şəxsə Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən sorğu-sual edilən zaman tərcüməçi kimi iştirak edərkən işgəncə verib.

İstintaqla o da müəyyən olunub ki, Lüdvik Mkrtiçyan tərəfindən daha 11 nəfər əsir götürülüb. Azərbaycan vətəndaşının müxtəlif vaxtlarda Xocavənd və Ağdərə rayonları ərazisində, Şuşa həbsxanasında və Ermənistanın İrəvan şəhərində qanunsuz saxlanıldığı yerlərdə döyülərək müxtəlif xarakterli işgəncələrə məruz qaldığı və Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusunun avtomat silahdan atəş açılaraq öldürüldüyü müəyyən edilib.

Lüdvik Mkrtiçyan 20 oktyabr 2020-ci il tarixdə Füzuli rayonunun Məlikcanlı kəndi ərazisində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları tərəfindən saxlanılaraq ələ keçirilib.

Aparılan istintaq tədbirləri nəticəsində Lüdvik Mkrtiçyanla birlikdə azərbaycanlılara qarşı amansız rəftar edərək onlara işgəncələr vermiş Ermənistan Respublikasının vətəndaşı, 1967-ci il təvəllüdlü Xosrovyan Alyoşa Aramaisoviçin də cinayətkar əməlləri ifşa olunub.

İstintaqla Alyoşa Xosrovyanın 5 nəfər azərbaycanlıya əsirlikdə olduqları müddətdə işgəncə verməsi, onlarla qəddar və qeyri-insani rəftar etməsi müəyyən edilib.

Belə ki, Alyoşa Xosrovyan 1994-cü ilin aprel ayında Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin əsir düşmüş sabiq əsgərini Xocavənd rayonunun Mısmına (Ağbulaq) kəndindəki yaşayış evlərinin birində qanunsuz olaraq saxlanılan zaman, qondarma Dağlıq Qarabağ Respublikasının Müdafiə naziri Babayan Samvel Andranikoviç üçün həmin kənddə evin tikintisində ağır işlərin görülməsinə məcbur edib ona müxtəlif dərəcəli xəsarətlər yetirib.

Bundan başqa, Alyoşa Xosrovyan Azərbaycan Silahlı Qüvvələrinin 1993-1994-cü illər ərzində əsir düşərək Şuşa şəhər həbsxanasında qanunsuz olaraq saxlanılan əsgərlərinə qarşı da xüsusi qəddarlıq nümayiş etdirərək onlara mütəmadi olaraq döymə, ac-susuz saxlama, fiziki və psixi iztirablar yetirməklə işgəncə verib.



Alyoşa Xosrovyan Azərbaycan Respublikasının ərazisində kəşfiyyat xarakterli hərəkətlər apararkən 03 oktyabr 2020-ci il tarixdə Azərbaycan silahlı bölmələrinin hərbi qulluqçuları tərəfindən ələ keçirilib.

Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın Cinayət Məcəlləsinin 113 (işgəncə), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 279.1 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 318.2 (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə nəzərdə tutulan cinayətləri törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən onlara həmin maddələr üzrə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

20.05.2021-ci il tarixdə tarixdə iş üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

Hazırda cinayət işi üzrə digər şəxslərin cinayətkar əməllərinin ifşa edilərək məsuliyyətə cəlb olunması istiqamətində kompleks tədbirlər davam etdirilir.

**Azərbaycan Respublikası Baş Prokurorluğu bəyan edib ki, Ali Baş Komandan İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq törədildiyi vaxtdan asılı olmayaraq sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətmiş şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsi təmin ediləcək.**

***Aqil ABBAS***

# FRANSA MİLÇƏK KİMİ ÜRƏK BULANDIRIR

*Paşinyan məlum olduğu kimi, Avropa turuna çıxıb və ilk əvvəl də böyük bacıları Fransanın prezidenti Makronla görüşüb. Və Makron da böyük bir ölkənin prezidenti ola-ola bilmədiyi, daha doğrusu, bilmədiyi yox ey, bilib, özünü bilməməzliyə qoyduğu məsələlərə toxunaraq Ermənistanın tərəfini saxlayıb. Özü də guya ATƏT- in həmsədr ölkəsidir və bitərəf olmalıdır.*

*Deyib ki, Azərbaycan ordusu Ermənistanın ərazilərindən çıxmalıdır. Bir qarış da Ermənistan ərazisində Azərbaycan əsgəri yoxdur. Əksinə, Azərbaycanın 10-a qədər kəndi hələ də erməni silahlı qüvvələrinin işğalı altındadı. Ermənistanın özünün ərazisi bizə məxsus olsa da, biz bey-*



*nəlxalq qanunlara riayət edərək bütün dünyanın tanıdığı və qəbul etdiyi Ermənistan Respublikasının sərhədlərini pozmamışıq. Amma hələ də Ermənistan Silahlı Qüvvələri Azərbaycanın ərazisindədir.*

*İkincisi, Makron deyir ki, Azərbaycan əsirləri qaytarmalıdır. Azərbaycan müharibə vaxtı götürdüyü əsirləri qaytarıb. Bizdə qalanlar əsirlər deyil, terrorçulardır. Və artıq onların 14-nün istintaqı başa çatıb və iş baxılması üçün məhkəməyə göndərilib. Digərlərinin də cinayətləri hələ araşdırılır.*

*Biz Fransa deyilik ki, türk diplomatlarını öldürən, türk turistlərini güllələyən erməni terrorçularını həbsdən açıb buraxaq və onları Qarabağa döyüşməyə göndərək.*

*Və Makron deyəsən, prezidentlərin səlahiyyətindən də xəbərsizdir. Və bizim prezidentdən tələb edir ki, sərəncam verib terrorçuları buraxsın. Dünyanın heç bir ölkəsinin prezidentinin belə bir müstəsna səlahiyyəti yoxdur ki, haqqında cinayət işi qaldırılmış kimisə açıb həbsxanadan buraxsın. Bu yalnız məhkəmənin, daha doğrusu, hakimin səlahiyyətindədi. Prezident məhkəmənin hökmü çıxandan sonra kimisə əfv edə bilər və təbii ki, terrorçuları yox.*

*Və həm də heç bir dövlətin Azərbaycanın daxili işinə qarışmağa nə hüququ çatar, nə də gücü. Azərbaycan qüdrətli bir dövlətdir, müdrik və dünyanın qəbul etdiyi prezidenti var.*

*Və Makron cavabını Möhtərəm Prezident İlham Əliyevin Ağdam səfərindəki çıxışında aldı. Bildirdi ki, Avropa Parlamentinin Azərbaycanın əleyhinə çıxartdığı məlum qərarı bir kağız kimi kənara atıb.*

*Fransa da Avropa Parlamentinin üzvlərindən biridi, deməli, Makronun bəyanatı Avropa Parlamentinin çıxartdığı qərardan da iki dəfə o tərəfə atılıb.*

*Makron onu da deyir ki, Fransa Ermənistanın yanındadır. İstəyirsən yanında olma ey, lap Ermənistanı qucağına al, xeyiri yoxdu, sizin minmək istədiyiniz qatar çoxdan gedib.*

*Və sonda. Birinci Qarabağ savaşında Ermənistan Silahlı Qüvvələrinin şəhərlərimizi, kəndlərimizi darmadağın etməsini, 20 minə yaxın vətəndaşımızı şəhid eləməsini, 1 milyona yaxın insanı yurdundan-yuvasından didərgin salmasını qoyaq bir kənara. Həmin müharibə zamanı 4 minə yaxın azərbaycanlını əsir götürmüşdü. Hələ də onlardan bir xəbər-ətər yoxdu. Niyə bu barədə Fransa dilini dinməz yerinə qoyub?*

## *Əlillik təyinatında dəyişikliklər olacaq*



**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında 60 qanunda əlilliklə bağlı maddələrə dəyişiklik layihələri müzakirə edilib.**

Adalet.az-ın məlumatına görə, komitə sədri Musa Quliyev bildirib ki, qanunlara dəyişikliklər 2018-ci ildə qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun və onun tətbiqi ilə bağlı Prezidentin fərmanının icrası ilə əlaqədardır.

Burada əsas yenilik indiyədək mövcud olan klassik əlillik dərəcələrindən imtina edilərək onun insanların sağlamlıq imkanlarının, orqanizmin funksiyalarının itirilməsi faizi ilə ifadə olunmasına keçiddir.

"Dəyişikliklərdə əsas məsələ şəxsin əlilliyinin dəqiq müəyyən olunması və sağlamlığının qalan imkanlarının düzgün qiymətləndirilərək onun reabilitasiya potensialının müəyyənləşdirilməsidir",-deyə M.Quliyev əlavə edib.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihələri barədə ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunan bu qanun layihələri həm də "Əlilliyin müəyyən olunması meyarları" sahəsində ÜST-nin müəyyənləşdirdiyi standartların implementasiyasını nəzərdə tutur.

Şöbə müdiri dəyişikliklərin əlillik təyinatının daha obyektiv aparılmasına təminat verdiyini vurğulayıb, onların hazırlanması prosesində təhlil edilmiş qabaqcıl beynəlxalq təcrübələrdən danışıb.

Dəyişikliklərdə əsasən "əlillik dərəcəsi" sözlərinin "insan orqanizminin funksiyalarının itirilməsi faizi" sözləri ilə, "I, II və III dərəcə" sözlərinin "orqanizminin funksiyalarını 31-100 faiz itirmiş" sözləri ilə, "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar" sözlərinin "18 yaşınadək əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilməsi təklif olunub.

**Nicat Novruzoğlu**



Qorxmaz İbrahimli

# Utanmaq lazımdır, cənab cənablar

***Dünyanın dörd bir tərəfində yatırım edən, ofislər açan SOCAR nədənsə ölkəmizdə yanacaq emal edən bir fabrik qura bilmir.***

***Aİ 95 benzinin qiymətini artırmaq üçün gülünc bir bəhanə uydurdular.***

***Ardından da ölkəmizdə daha çox Aİ 92 və dizel yanacaqlarının istifadə olunduğunu fəxrlə deyirlər.***

***Buna sevinmək yox, utanmaq lazımdır, cənab cənablar.***

***Avropa artıq dizel yanacaqlı avtomobillərin hərəkətini qadağan eləyir.***

***Bizimkilər də ölkəmizdə daha çox Avropa və dünyanın digər ölkələrində istifadədən çıxarılmış nəqliyyat vasitələrinin istifadəsindən danışaraq təskinlik verirlər...***

***Ölkədə müasir üsullarla benzin istehsal edən fabrikin qurulması tək benzinin ucuz olması deyil, həm də valyutanın xaricə axınının qarşısını alardı.***

***Amma məndən soruşan lazımdır ki, bunu səndən başqa bilən yoxdurmu?***

***Əlbəttə bilirlər.***

***Lakin xalqın və dövlətin malını talayan məmurlar bu haqda heç düşünmək istəyirlər.***

***Dövlət isə hələ də susmaqdadır.***

# Şəhidin doğum günü qeyd edilib



**Suqovuşan uğrunda gedən döyüşlər zamanı şəhid olan Teymur Osmanlının doğum günü qeyd olunub.**

Adalet.az-ın məlumatına görə, Teymur Osmanlı Vətən müharibəsində könüllü olaraq iştirak edib. Bu gün Teymurun adını daşıyacaq bulaq kompleksinin də açılışı olub. İsmayıllı rayon icra hakimiyyətinin başçısı Nahid Bağırov açılışda iştirak edib.

Qeyd edək ki, yeni inşa edilən bulaqda kəndin digər şəhidi 1993-ci ildə Ağdam uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş komandir Çingiz Bağırovun şəkli də həkk olunub.

Teymur Osmanlı 1995-ci il mayın 31-də İsmayıllı rayonunun Cülyan kəndində anadan olub. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Azərbaycan Ordusunun əsgəri olan Teymur Osmanlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Teymur Osmanlı oktyabrın 17-də Suqovuşan döyüşləri zamanı şəhid olub.

**Teymur Osmanlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.**

# Təl-Əviv Dəmir Qübbə üçün ABŞ-dan 1 milyard istəyir



***Bu gün, ya da sabah israillilər Pentaqondan İsrailin müdafiəsi üçün istifadə olunan Dəmir Qübbəni gücləndirmək üçün 1 milyard dollar yardım tələb edəcəklər.***

***Bu sözləri ABŞ-ın respublikaçı senatoru Lindsi Qrehem "Foks Nyu" televiziyasına müsahibəsində deyib.***

***O, bu fondun təsdiqlənməsi üçün Senatda üzərinə düşəni etməyə hazır olduğunu bildirib.***

***Qrehem İsrail Baş naziri Benyamin Netanyahunun yaşadığı siyasi problemlərə baxmayaraq, ABŞ-İsrail münasibətlərinin dəyişməyəcəyini vurğulayıb.***

***MEHRİBAN***

# ABŞ HEGEMONLUĞUNU NÜMAYİŞ ETDİRİR



**ABŞ-ın müdafiə naziri Lloyd Ostin bəyan edib ki, Rusiya və Çinin amerikan əsgərləri barədə fikirləri onu qətiyyən narahat etmir.**

"Məni nailliyyət qazanmaq üçün, millətimin təhlükəsizli maraqlandırır" -deyə general CNN-ə müsahibəsində fikirlərinə aydınlıq gətirib. Ostin bildirib ki, bir çox siyasilər amerikan ordusunun əhatə dairəsini genişləndirməsini tənqid edirlər. Onun sözlərinə görə Pentaqon hərbiçiləri "heç vaxt yumşaq hərəkət etməyəcək. Moskva və Pekin sadəcə olaraq bu cür danışıqlardan faydalanmaq istəyirlər.

Telekanal qeyd edir ki, müfafiə naziri ABŞ prezidenti Co Baydenin bəyənatları fonunda ənənəvi xarici siyasətə dəatək verməklə yanaşı, Hərbi qüvvələrinin möhkəmlənməsinə çalışır.

**Rüstəm Hacıyev**

# Şəhid övladlarına xüsusi bayram

**Bu gün 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə bir çox rayonlarda tədbirlər həyata keçirilib .**

O rayonların ikisi haqqında qısa mə'lumat yazacam .

Tərtər və Ağstafa rayon İcra Hakimiyyətinin başçıları şəhid və qazi ailələrinin gül balalarını yaddan çıxartmayıb.



Tərtər rayon İcra Hakimiyyətinin, Paşa Sığorta şirkətinin birgə təşkilatçılığı və Paşa Holdinqin dəstəyi ilə Ulu Öndər Heydər Əliyevin adını daşıyan parkda şəhid olan qəhramanlarımızın və qazilərin övladlarının iştirakı ilə keçən tədbirdə çıxış edən Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov uşaqları salamlayaraq , onları 1 iyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə təbrik etdi . Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun əldə etdiyi tarixi Zəfərdən danışıb. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda savaşlarda canlarını fəda etmiş şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını vurğulayıb.

Şəhid ailələri və qazilər də tədbirdə çıxış etdilər .

Sonra Tərtər rayon Mədəniyyət Mərkəzinin özfəaliyyət kollektivinin və Uşaq-Gənclər İnkişaf mərkəzinin yetirmələrinin hazırladığı konsert proqramı təqdim olundu , balacaların ifasında şeirlər səsləndirildi .

**Tədbirin sonunda Paşa Holdinq tərəfindən göndərilən hədiyyələr uşaqlara paylandı . Uşaq-Gənclər İnkişaf mərkəzinin şagirdlərinə rayon İcra Hakimiyyəti tərəfindən diplomlar və qiymətli hədiyələr təqdim olunub.**

**Maya Quliyeva**

# "PAŞİNYAN RUSİYANIN NƏ İSTƏDİYİNİ ANLAMIR"

## Nikol gülüş hədəfinə cevriləcək



**Ermənistsnın eks prezidenti Levon Ter-Petrosyanın sözlərinə görə Moskva Nikol Paşinyanla regiondakı gələcək planları barədə açıq və səmimi niyyətlərini paylaşır. Sadəcə olaraq o, Kremlin nə demək istədiyini anlamır.**

Eks prezident Levon Ter-Petrosyan bəyan edib ki, Qarabağ münaqişəsinin necə həll olunacağını bilmir, xüsusilə də sülhməramlıların bölgədən çıxarılmasından sonra. Ölkənin ictimai telekanalına müsahibəsində o, bildirib ki, siyasi qüvvələr məsələnin nizamlanması ssenarisi ilə bağlı qeyri-real, az qala Ankaranıda işğal edəcəkləri barədə fikirlər səsləndirirlər.

"Məndən soruşursunuzsa, mən səmimi olaraq bildirirəm ki, mən bilmirəm. Hardasa Azərbaycanın, İlham Əliyevin nə istədiyini dərk edirəm, amma Rusiyanın planları barədə heç nə deyə bilmərəm. Çünki Rusiya heç vaxt planlarını açıq şəkildə bildirmir"- deyə eks prezident bildirib.

Ter-Petrosyan müsahibəsində qeyd edib ki, Rusiya planları barədə yeganə bölüşdüyü adam Ermənistanın rəhbəri Nikol Paşinyandır. O, etiraf edib ki, onun da "ruslarla əlaqələri var, rus səfiti ilə tez-tez görüşür. Koçaryan Kremlə daha yaxındır, amma ona da planları barədə heç nə deməzlər".

Baş nazir Paşinyanın isə problemləriri başqadır: "Mən əminəm ki, Putin Ermənistan, Qarabağ və ümumiyyətlə regonla bağlı planların səmimi olaraq Paşinyanla bölüşür. Təəssüf ki, Paşinyan hətta rusların nə demək istədiyini belə anlamır".

Eks prezident rusların regiondan çıxarılması ssenarisindən sonra hadisələrin necə cərəyan edəcəyini söyləməkdə çətinlik çəkdiyini, yəqin ki, yeni müharibə başlayacağını, lakin Türkiyənin bu halda hansı mövqe tutacağını proqnozlaşdıra bilmədiyini bildirib.

Ermənistanın birinci prezidenti Rusiyanın Zaqafqaziyada hansısa planları olduğunu güman etdiyini bildirib. Ter-Petrosyan Paşinysna müraciət edərək bildib ki, "dövlət başçısı xarici partnyorlarına kələk gəlməməlidi, cünki bu özünü aldatmaqdan başqa bir şey deyil. Səni hamı eşidir, alqışlayır, amma unutma ki, sonra onların gülüş hədəfinə çevirəcəksən".

Eks prezident müsahibəsində qeyd edir ki, "özünü heç vaxt nə Rusiya ilə, nə də Azərbaycanla belə aparmaq niyyəti yoxdur. Ermənistan və Azərbaycan arasında heç vaxt Nikol Paşinyanın hakimiyyəti dövründə olduğu qədər sərt danışıqlar aparılmayıb".

**Əslində müsahibədən də göründüyü kimi, Ermənistanda olan siyasi qüvvələr hələ də 44 günlük Vətən müharibəsində aldıqları acı məğlubiyyətlərindən nəticə çıxarmayıb. İqtisadi cəhətdən iflasa uğramış, ordusu demək olar ki, iflic vəziyyətinə düşmüş bir ölkə, hələ də nəyəsə ümid edir. Amma Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də dediyi kimi, "dəmir yumruq həmişə yerindədi".**

**Rüstəm Hacıyev**

# <u>Sensasiya:</u> Putin və Bayden dünyanı belə bölacək

**Putinlə Baydenin görüşü tet-a-tet formatında keçirilməlidir, çünki orada iki lider dünyanı bölüşdürəcək. Tərcüməçilər istisna olmaqla, hər kəsin otaqdan çıxarılması gərəkəcək. Danışıqlar bitəndən və nüfuz zonalarının bölüşdürülməsindən sonra tərcüməçilər güllələnməlidir ki, heç kəs iki liderin nədən danışdığını bilməsin.**



Bu barədə "Rossiya-1" telekanalında "Vladimir Solovyovla axşam" verilişinin efirində Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski deyib. Onun sözlərinə görə, görüş zamanı liderlər dünyanı təsir zonalarına bölməli olacaqlar: "Yaxın və Uzaq Şərqdə hər şey aydındır. Amma Moldovanın bir hissəsinin Rusiya, digərinin isə Rumıniyanın təsiri altına keçəcəyi ilə bağlı mübahisə aparmaq lazım gələcək. Həm də Ukraynanın 6 qərb bölgəsini vermək məcburiyyətində qalacağıq. Burada Lvov paytaxt olacaq. Ukraynanın bütün qalan hissəsi isə Rusiyaya keçəcək. Belarus tam olaraq Rusiyanın nəzarətində olacaq. Bu sözsüzdür. Baltikyani ölkələrdə sərhədlər dəqiqləşdiriləcək. Tallinə köhnə adını - "Revel"i qaytaracağıq, Tartu isə onsuz da Rusiya şəhəri kimi tanınırdı. Cənubi Latviya ruslara, Vilnüs diyarı isə Belarusa qaytarılacaq. Onlara isə Kaunas (Litva) qalacaq. Bu, sadəcə sözlər deyil. İllər əvvəl mən Yaxın Şərqin xəritəsini çəkmişdim. İndi orada hər şey mən dediyim kimidir", - deyə Jirinovski qeyd edib.

**MEHRİBAN**

Orxan Aslan



# Tarixi qələbədən keçən 205 gün – Zəfər salnaməsi

***İl yarımdan çox olan bu müddət ərzində çox şey dəyişdi. Hadisələrə xronoloji ardıcıllıqla nəzər yetirək:***

***- Ərazi bütövlüyümüz bərpa olundu;***

***- Naxçıvan dəhlizinin yenidən qurulması üzərində işlər həyata keçirilir;***

***- Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinə başlanıldı;***

***- Prezident İlham Əliyevin sərəncamı ilə işğaldan azad edilmiş***

***ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradıldı;***

***- 10 dekabr 2020-ci ildə - Bakıda Azadlıq Meydanında Qələbə Paradı və ya Zəfər Paradı keçirildi. Paradda 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı türk əsgər və zabitləri də iştirak edib.***

***- Prezident İlham Əliyevin sərəncamına əsasən hər il noyabr ayının 8-i Zəfər günü kimi qeyd olunacaq***

***- Prezidentin sərəncamı ilə vətən müharibəsində yaralanan və şəhid olan hərbi qulluqçuların ailələrinə dəstək məqsədilə - YAŞAT Fondu yaradıldı;***

***- Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 44 günlük vətən müharibəsində şücaət və qəhrəmanlıq göstərən hərbi qulluqçuların orden və medallarla təltif olunması ilə bağlı müvafiq sərəncam imzaladı. "Cəsur döyüşçü", "İgidliyə görə", "Vətən müharibəsi iştirakçısı" və digər medalların verilməsi ilə yanaşı işğaldan azad olunmuş rayonların adlarına uyğun olaraq medallar da təsis olundu;***

***- Prezidentin sərəncamına uyğun olaraq "Qarabağ Dirçəliş Fondu" yaradıldı;***

***- Hərbi Qənimətlər Parkı yaradıldı - Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 27 sentyabr - 10 noyabr 2020-ci il tarixlərində 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin və Ermənistan ordusu tərəfindən qurulmuş müdafiə sədlərinin nümayiş olunması məqsədini daşıyır.***

***- Dövlət başçısının müvafiq sərəncamına əsasən, Aydın Kərimov - Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin edildi.***

***- Dövlət Başçısının sərəncamına əsasən Şuşa şəhəri, Azərbaycanın mədəniyyət paytaxtı elan olunub.***

***- Dövlət başçısının müvafiq sərəncamına əsasən, Emin Hüseynov- Prezidentin Ağdam rayonunda xüsusi nümayəndəsi təyin edildi.***

Qeyd olunanlar rəsmi xronoloji ardıcıllıq idi. Bununla yanaşı, ölkə başçısı cənab İlham Əliyev bir neçə dəfə işğaldan azad olunmuş ərazilərə səfər edib. Həmin səfərlər zamanı yenidənqurma və bərpa işləri ilə bağlı lazımı tapşırıqlarını da verib. Şuşa şəhərində yaşayış sahələri ilə yanaşı tarixi mədəniyyət abidələrinin də bərpasına başlanılıb. Erməni vandalizminə məruz qalmış Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpa işləri davam etdirilir. Şuşa şəhər mədəniyyət və turizm şöbəsinin müdiri Zahid Abbasov mətbuata açıqlamasında bildirib ki, Şuşada olan 378 tarixi memarlıq abidəsindən 52-si qismən, digərləri tamamilə dağıdılıb.

Bununla yanaşı, Dövlət Başçısının tapşırığına əsasən Qarabağda 3 rayonda hava limanı inşa olunacaq. Tapşırığa uyğun olaraq Füzuli və Zəngilanda hava limanının tikinti işlərinə artıq başlanılıb. Digər hava limanı isə Laçın rayonunda inşa ediləcək. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə artıq "ağıllı kənd" layihəsinin icrasına başlanılıb. Aprel ayının 28-də dövlət başçısı Zəngilan rayonunun Ağalı kəndinin təməlqoyma mərasimində iştirak edərkən bu fikirləri səsləndirib: "Zəngilanda bu gün birinci kənd layihəsinin icra edilməyə başlaması, Ağalı kəndinin təməl daşının qoyulması böyük qayıdışın birinci addımıdır. İnfrastruktur işləri öz qaydasında davam edir. İndi birinci "ağıllı kənd" layihəsi olan Ağalı kəndinin bərpasına start verilib", - deyə İlham Əliyev bildirib.

Həmçinin işğaldan azad olunan rayon və şəhərlərdə kommunikasiya işləri görülür. Rayon və şəhərlərin baş planları hazırlanır. Prezident İlham Əliyevin ötən həftə Ağdama səfər etməsi, şəhərin təməlinin qoyulma mərasimində şəxsən özünün iştirak etməsi buna bariz nümunədir.

***İşğaldan azad olunmuş ərazilərdə ən möhtəşəm tədbirlərdən biri Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində may ayının 12-də keçirilən "Xarıbülbül" festivalı oldu. Tədbirdə Dövlət başçımız İlham Əliyev, Birinci vitse- prezident Mehriban xanım Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər. Festivala həmçinin Şuşadan olan mədəniyyət və incəsənət nümayəndələri də qatılıblar.***

Dövlət Başçısının "Xarıbülbül" festivalında etdiyi çıxışın bir hissəsini diqqətinizə çatdırıram: "Uzun fasilədən sonra Cıdır düzündə - hər birimiz üçün müqəddəs olan Şuşada "Xarıbülbül" festivalı keçirilir. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir. Mən xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək".

Prezident İlham Əliyev qeyd edib ki, Şuşa Azərbaycan xalqının milli sərvətidir: "Bu yaxınlarda Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir. Şuşa qədim Azərbaycan şəhəridir. Gələn il biz Şuşanın 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Ermənilər nə qədər çalışsalar da Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu".

Müharibədə qələbə asanlıqla qazanılmır. Ancaq buna baxmayaraq, vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış, eləcə də qazi olmuş hərbi qulluqçularımıza dövlət ən yüksək səviyyədə qayğı göstərməkdə davam edir. Bu işlərlə bağlı YAŞAT Fondu əlindən gələn köməyi əsirgəmir. 31 may tarixinə olan statistik məlumata əsasən, Fond tərəfindən bu günə qədər 94 qazimiz müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 32-nin müalicə proseduru artıq uğurla yekunlaşıb və Vətənə qayıdıblar.

Bu torpaqlar şəhidlərimizin canı, qanı bahasına işğaldan azad olunub. Torpaq, uğrunda, vətən yolunda sinəsini sipər edən, canını gözqırpmadan verərək şəhidlik zirvəsinə ucalan şəhidlərimizə Allah rəhmət eləsin. Onlara bir ömür borcluyuq. Düşmənə deyin ki, sağdır Şəhidlər!

Statistik məlumata əsasən ötən ilin 27 sentyabrından bu günə qədər Azərbaycanda 91 şəhid övladı dünyaya gəlib.

***30 il ərzində işğalçılıq siyasəti yürüdən, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan bu illər ərzində Qarabağ bölgəsinin demək olar ki, hər bir qarışını minalayıb. Müharibə qaydalarına uyğun olaraq, məğlub olan tərəf müharibə bitdikdən sonra minalanmış ərazilərinin xəritəsini qarşı tərəfə verir. Ədalət və dürüstlükdən uzaq olan Ermənistan tərəfi məğlubiyyət acısını həzm edə bilmədiklərinə görə, müharibənin bitməsindən 7 ay keçməsinə baxmayaraq, hələ də minalanmış ərazilərin xəritəsini Azərbaycan tərəfinə vermək istəmir. 30 il olduğu kimi yenə də beynəxalq ictimaiyyət və qurumlar Ermənistanı bu əməlindən çəkindirməklə bağlı çağırış etmirlər. Məhz buna görə də, 30 il ərzində öz doğma yurd yuvalarından Ermənistan Silahlı Qüvvələrinin işğalçılıq siyasəti nəticəsində çıxarılmış, qovulmuş azərbaycanlı məcburi köçkünlər ərazilər minalı olduğu üçün öz yurdlarına, vətənlərinə qayıda bilmirlər. Məsələ ilə bağlı statistik məlumatı diqqətinizə çatdıraq. Müharibədən sonrakı 7 ay ərzində 20-dən çox mülki vətəndaşımız işğaldan azad edilmiş ərazilərdə minaya düşüb. Onlardan bəziləri dünyasını dəyişib, digərlərinin isə bədən üzvləri amputasiya olunub.***

Müharibənin məğlubiyyət acısını həzm edə bilməyən erməni faşizmi 30 il olduğu kimi yenə də sərhədboyu ərazilərimizdə təxribat törətməkdə, təmas xəttində süni gərginlik yaratmaqda davam edirlər. Amma buna baxmayaraq, 44 günlük vətən müharibəsində dəmir şücaət göstərən Azərbaycan Ordusu, bu təxribatlara peşəkar şəkildə cavab verir.

Dövlət başçısının çıxışındakı bu ifadələr düşmənə sillə kimi cavab oldu: "Müharibə arxada qaldı. Müharibə bizim gücümüzü göstərdi, əyilməz iradəmizi göstərdi, birliyimizi göstərdi, müharibə rəmzinə, qələbə rəmzinə çevrilən dəmir yumruq öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq".

***Sonda bir məsələni xüsusi qeyd etmək istərdim. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun həyata keçirdiyi uğurlu taktika və yaddaşlarda qalacaq unudulmaz "Şuşa əməliyyatı" tarixin, eləcə də tarix kitablarının şanlı və silinməz səhifəsinə çevrildi. Çox istərdim ki, 44 günlük müharibə zamanı düşmənin zirehli texnika və silah sursat anbarlarını məhvetmə anını əks etdirən videolar da, həmin tarix dərslərində video-rolik şəklində nümayiş etdirilsin. Atalar yaxşı deyib: "Min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır".***

44 günlük müharibədə dostumuzu da, düşmənimizi də yaxşı tanıdıq. Eyni tendensiyanı müharibədən sonrakı dövrə də aid etmək olar. Qarşımızda dayanıb söz deyə bilməyənlər, arxamızca danışdılar, düşmənə dəstək oldular amma nə fayda? Haqq öz yerini tapdı, torpaqlarımız Müzəffər Ali Baş Komandanın qətiyyətli siyasəti, iradə, əzm, milli ruh və yüksək idarəçilik dəyərləri və rəhbərliyi sayəsində, həmçinin Ordumuzun məğlubedilməzliyi sayəsində düşməndən azad edildi.

Müharibə bitdikdən sonra Ali Baş Komandan İlham Əliyev Şuşaya səfər edərkən ifadə etdiyi bu fikirlər əsl sərkərdəyə yaraşan cümlələr idi: "Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcəyik".

**44 günlük Vətən müharibəsi zamanı Azərbaycan xalqına mütəmadi olaraq məlumat verilir, Ordumuzun torpaqlarımızı düşməndən azad etməsi ilə bağlı açıqlamalar verilirdi. Hər açıqlamanın sonunda isə bu ifadə səslənirdi: "Qələbə bizimlədir!". Qələbə bizim oldu - haqlı olan, ədalətli olan tərəfin - AZƏRBAYCANın.**

**Qarabağ bizimdir!**
**Qarabağ Azərbaycandır!**

# «Ağlamamaq üçün özümü güclə saxlamışdım»

***Həmsöhbətimiz Sumqayıt şəhəri Z.S.Hacıyev adına 17 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Aidə Ağayevadır***

### *Sənədləşmə işlərinə zaman sərf etmək müəllimləri yorur*

**-Müəllim peşəsindən öncə təlimçi kimi çalışmısınız. Sinif otaqlarında müəllim olmaq çətindir,yoxsa böyüklərə təlim keçmək?**

-Bəli, ilk fəliyyətim sinif otağında şagirdlərlə deyil, müəllimlər,müəllimliyə ilk addımlarını atacaq müdavimlərlə birgə oldu. Müəllimlik,təlimçilik peşəsində ən sevdiyim tərəf müxtəlif təbiətdə olan insanlarla ünsiyyət qurmaqdır,bir də biliyini,səndə olan informasiyanı digərləri ilə bölüşməkdir. İstər azyaşlı,istərsə də yetkin yaşına çatmış fərdlərin də özünəməxsus fikirləri,düşüncələri var



və ona görə də hər bir müəllim,təlimçi öyrədərkən mütləq şəkildə özü də öyrənir.Əslində, son zamanlar onlar arasında çətinlik baxımından çox da fərq görmürəm,çünki hər ikisində fasiltatorluq bacarığı,sinfin idarəolunması, psixoloji mühitin yaradılması, dərsə, təlimə öncədən hazırlaşmaq, onların yaş aralığını nəzərə alınması,motivasiya yaradılması kimi faktorlar özünü göstərir. Sadəcə həm şagirdlə,həm də valideynlərlə ünsiyyət qurmaq,ortaq dil tapmaq, eyni zamanda sənədləşmə işlərinə görə xeyli zaman sərf etmək müəllimləri yorur.

**-Sumqayıt şəhər olsa da Bakıdan bir çox xüsusiyyətləri ilə fərqlənir.**

-Bəlkə də bu şəhərdə doğulmağım,təhsilimi burada almağım,eyni zamanda müəllim olaraq fəaliyyətimi də burada davam etdirməyim Sumqayıt şəhərini çox sevməyimə səbəb olur.Sumqayıt çox sakit,səs-küydən uzaq,insanı uzun yollarıyla yormayan şəhərdir.Həmişə sağlam rəqabət edə biləcəyimiz təhsil mühiti,daim öz üzərində işləyən müəllim heyəti,təhsil ocaqlarının əlçatan olması,təhsil ocaqlarında oxumaq həvəsi olan şagirdlərin yüksək nəticələrinin olması,övladlarını təhsilə həvəsləndirən valideynlərin çoxluğu və s.xüsusiyyətləri ilə fərqlənir.Təhsildə yeniliyi,inkişafı üstün bilən və daim öz üzərində işləyən müəllimlər üçün Sumqayıtda əlavə təhsil,tədris müəssisələri,təlim,seminar,konfransların azlığı özünü göstərir.Təhsildən başqa Sumqayıt şəhərinin sıxlığının çox olmaması,istədiyim məkana əlçatanlığı,maddi baxımdan da büdcəyə uyğunluğu fərqliliyini göstərir.

**-İbtidai sinif orta məktəb təhsilinin bünövrəsini təşkil edir.Bu bünövrəni qoymaqda ibtidai sinif müəllimlərinin üzərinə hansı məsuliyyət düşür?**

-İbtidai sinfə daxil olan hər bir şagird sinif daxilində,cəmiyyət qarşısında olan,ev mühitində mənimsəmədiyi qaydaları və ilkin öyrənmə,oxuma,yazma,oxuyub anlama,riyazi-məntiq hesablamasını öyrənir.Onların öyrənmə mühitində həm fiziki həm də psixoloji sağlamlığı biz müəllimlərin üzərinə düşür.Yoldaşları ilə ünsiyyət qurmaq bacarığı,dostluğu,insan dəyərlərinə məxsus mənfi və müsbət xüsusiyyətləri haqqında təməl biliklər,vətənpərvərlik hissini,öz doğma yurdunun yaranma tarixi,tarixi şəxsiyyətləri,yazıçıları,şairləri,cəmiyyətdə özünü düzgün aparma qaydaları haqqında əsas,ilkin məlumatlar ibtidai müəllim tərəfindən təhsil mühitində aşılanır.

**-Gənc Müəllimlər Assosiasiya ilə müxtəlif fəaliyyətləriniz var. Bu təşkilatın önəmi nədir,bu təşkilatla təhsilimizə hansı müsbət təsiri gözləyirsinz?**

- AGMA üzvüyəm, AMA-nın həm üzvüyəm həm də Sumqayıt şəhər üzrə koordinatoruyam.Ümumiyyətlə, belə maarifləndirici,öyrədici,inkişafedirci təşkilatlarda olmaq maraqlıdır.Bu cür təşkilatlar istər-istəməz müəllimlər arasında sağlam rəqabəti gücləndirir,həm də müxtəlif təlim,seminarlar istər şagirdlər üçün,istərsə də təhsil işçiləri üçün təşkil edir.Mən də AMA-nın təsisçisi Tofiq Sadıxovun tövsiyyəsi ilə AGMA -ın keçmiş sədri ,Abşeron rayon deputatı Şahin Seyidzadə və Milli Məclis sədrinin müavini,Gənclər və İdman komitəsinin sədri Adil Əliyev tərəfindən "Gənc nəslin yetişməsində göstərdikləri xidmətlərə görə "Fəxri Fərmanla təltif olundum. Daim fəal olan,axtaran,araşdıran müəllimləri qiymətləndirirlər,bu da müəllim üçün bir uğurdur və daha çox həvəslə işinə yönəlməsinə səbəb olur.

### *Necə ola bilər ki, müəllim bizi övladı kimi, özünü bizim anamız kimi hiss edə bilər...*

**- İbtidai sinif müəllimi olmaq bir növ analıq məsuliyyəti kimidir...**

-Mən şagird olduğum zamanlarda müəllimlər bizlərin hər birini övladları kimi gördüklərini,narahat olduqlarını,uğurlarımıza ürəkdən sevindiklərini,narahatçılığımıza,kədərimizə ortaq olduqlarını deyirdilər. Həmin zaman bu cümlələrin dərinliyi anlamırdım,necə ola bilər ki müəllim bizi övladı kimi ,özünü bizim anamız kimi hiss edə bilər? Saf baxışlı,məsum uşaqlarla işlədikcə uşaqlardan gələn sevginin o hissi yaratdığına əmin oldum.Onların dərs arasında,evdə yazdıqları şeirlər,ürək sözləri,mənə məxsus düzəldikləri əl işləri,mənim rəsmimi çəkməkləri,videoçarxlar hazırlayıb göndərməkləri bunlar heç bir yerdə tapılmayan və əvəz olunmayan hisslərdir.

**-AMA-nın Sumqayıt koordinatorusunuz.Koordinator kimi hansı fəaliyyətinizin önəmini xatırlada bilərsiniz?**

-AMA-nın fəaliyyəti sevgi,təhsil,toplum,dürüstlük ideaları əsasında maarifçiliyi aşılamaqdır. Təlimçi olmaq,təlimçi kimi öz peşəsini tam dərindən mənimsəmək,Təhsil Nazirliyin təşkil etdiyi Qrant müsabiqəsinə layihə yazmaq kimi təlimlər,seminarlar keçirilir."Mən bir müəlliməm" "Yumurca","AMA təqaüdü" layihələr fəaliyyətdədir.Mənim fəaliyyətim Microsoft Teams proqramı üzrə təlimlər keçirərək təhsil işçilərini daha çox sağlam rəqabətə yönlədirmək,maarifləndirmək,təhsildə yeniliklərlə anında xəbərdar olmaq üçün sövq etməkdir.

**-Region yerlərində bəzən qız uşaqlarının təhsildən yayınma halları olduğunu deyirlər. Bəs,bu Sumqayıt şəhərində hansı formadadır?**

-Təhsildən yayınma halları həm rayonlarda,həm də şəhərlərdə belə var.Sadəcə faiz azlığına görə şəhərləri göstərmək olar.Özüm təhsil aldığım zamanlarda daha çox rastlaşırdım,amma müəllim fəaliyyətim boyunca belə hallara rast gəlməmişəm.İbtidai sinif müəllimi olduğum üçün bu yaş aralığında valideynlərin övladının daha yaxşı təhsil alması üçün çalışdığını görürəm.

**-Müəllim fəaliyyəti dövründə ən çətin anlarınız nələr olub?**

- Ən çətin anım 2 dəfə olub.Məktəbdə şagirdlərimlə ilk günüm ən çətin anım olaraq qalıb.Həmin gün dərsi necə başlayıb,necə bitirməli olduğumu bilmirdim.2-ci çətin anımda isə bir şagirdim atası rəhmət gedən digər şagirdimi sözləri ilə incitmişdi. Uşağa necə təsəlli verəcəyimi bilmədim,hisslərim boğazımda düyünlənmişdi ağlamamaq üçün özümü güclə saxlamışdım.

**- Müəllim olduğunuza peşmanlıq keçirmisiniz?**

- İnsan nə qədər öz işini,peşəsini çox sevsə belə istər-istəməz yorulduğu anlar olur.Bizim işimizdə şagirdlərlə,valideynlərlə ünsiyyət daim olur,hər kəsin problemlərə baxışı,dünyagörüşü fərqli olduğundan anlaşmazlıqlar yaranır.Bu da bəzən yorğunluğa,peşmançılığa səbəb olur.Belə anlarda uşaqların gülüşü,uğuru,əziyyətimizin bəhrəsini görməyimiz yenidən ayağa qalxmağa,yenidən əvvəlki enerji ilə işə davam elətdirir.

**- Müxtəlif seminar,kurs iştirakçılığınız və s. Bütün bunlar həvəsdən irəli gəlir, ya...**

- Bir dəfə yaxınıma təlimçi vəzifəsinə gəlmək üçün lazım olan tələbləri 3 il ərzində bir-bir necə əldə etdiyimi danışanda mənə təəccüblənmişdi.Mənə görə insan öz işini sevirsə,işi haqqında hansı məqsədləri və hədəfləri varsa onları əldə etmək üçün vuruşmalıdır.Düşüncələrin niyyətdən çıxıb,qarşıya qoyduğun hədəfdirsə və bu hədəf üçün məqsədləri bir-bir əldə edəcək iradəni özündə gücləndirirsənsə,məncə gedilən seminar,təlimlər və s. həvəsdən irəli gələ bilməz.

**- Parelel olaraq təlimçilik və müəllimlik. Biri digərinə mane olmur?**

- Xeyr, heç bir mane olmayıb,bundan sonra da böyük ehtimalla olmaz deyə düşünürəm.Çünki təlimlərin saatı,günü müəllimlərin ixtiyarına verilir. Qrafiklə əlaqəli olaraq ya günün ikinci hissəsi, ya da həftənin bəzi günləri təlimə,bəzi günləri isə məktəbə sərf olunur.

**- Cəbhəyə göndərilən məktəbli məktubları...**

-Qarabağ müharibəsi zamanı bütün bölgələrdən ,eyni zamanda bizim məktəbdən də əsgərlərimizə şagirdlər tərəfindən saysız məktublar göndərildi.Kimi rəsm çəkərək,kimi qürurlandırıcı sözlər yazaraq əsgərlərimizə məktublar yazdılar.

Müharibə bitdikdən sonra şagirdlərimin bəzən Sumqayıt şəhərindəki Şəhidlər Xiyabanına,bəzən də Bakıdakı Xiyabana gedib şəhidlərimizin məzarını ziyarət etdiklərini bilirəm.Müharibədən sonra bir şagirdimdə o qədər vətənpərvərlik hissi yaranıb ki,özünü gələcəkdə xüsusi təyinatlı qüvvələrin əsgəri olaraq görür. Allah bütün şəhidlərimizə rəhmət etsin! Qazilərimizə də şəfa versin!

**Söhbətləşdi:**
**Emin Piri**

# Yaddan çıxmayan adamlar

**... Elə bilirsiz yadda qalmaq, unudulmamaq, kimlərinsə yaddaşında əbədi iz qoymaq asandı? Bunun üçün ən azından Adam olmalısan, Adam... Bunun üçün insanların qəlbində bir nur olmalısan... Bunun üçün dilin bal kimi şirin, ürəyin dünya boyda olmalıdı. Bax onda harda olmağından, yaşamağından, işləməyindən asılı olmayaraq o əhatədə yadda qalacaqsan, seviləcəksən və sənə hamı hörmətlə yanaşacaq...**

Adam var ki, uzun müddət bir eldə, obada yaşayır, bir yerdə işləyir, çoxlu sayda insanlarla oturub-durur, amma illər keçəndən sonra yadda qalmır. Və yadda qalmamağın da səbəbi mənim dediyim və göstərdiyim bu cəhətlərdir. Elə bil yadımdan çıxdı. Pis adam kimi də yadda qalmaq olur. Yəni, yaşadığın, işlədiyin yerdə ancaq ev yıxmaqla, mərdimazarlıqla, kiminsə balasının çörəyini əlindən almaqla məşğul olursansa, sən də yadda qalırsan. Ancaq Adam kimi yox, mərdimazar kimi, şeytan kimi, iblis kimi!...

Nəyə görə bu yazını qələmə aldım. Çünki 1993-cü ildə bizim qəzetdə işləmiş bir xanım bugünlərdə redaksiyamıza gəlib məni axtarırdı. İçəri girdi və "Faiq müəllim burdadırmı?" deyib soruşdu. Tez də qapını bağlayıb dəhlizə çəkildi. Sözün düzü qapını açıb içəri girən o xanımı ilk baxışdan mən də tanımadım. Amma tez də özüm dəhlizə çıxıb, onunla görüşdüm. Gördüm ki, çox həyəcan keçirir və sıxılır. Sonra dedim ki, xanım, içəri niyə girmədiniz? O da əlavə elədi ki, içəri girmək istədim, amma qorxdum ki, məni tanımayasınız, əməkdaşlarınızın yanında pərt olam. Təbii ki, mən ilk baxışdan onu tanıdım. Amma çox çətinliklə tanıdım. Çünki 1993-cü ildə bu xanım bizim redaksiyamızda işləyib və xeyli də yazı-pozuları olub. Xanım diqqətlə mənə baxdı və bir daha özünü təqdim elədi: "Mənsurə Qaçayqızı".

Bəli, hər şey mənim yadıma düşdü və bir-bir o illəri, ayları, günləri xatırladım. Yenidən onu otağımıza dəvət elədim. Amma gördüm ki, yenə sıxılır. Dostumuz Rüstəm müəllimin otağı açıq olduğu üçün elə ora keçib



söhbətimizi davam etdirdik. Adını çəkdiyim bu xanım qarabağlıdır, Bərdə rayonundandır. Çox istedadlı, zəhmətkeş və heç kəsə əyilməyən bir qələm sahibidir.

O danışdıqca yenidən 1993-cü ilə qayıdırıq. Bir-bir o otaqda əyləşdiyi dostlarımızın adını çəkir; rəhmətlik Ərşad Mirzəni, Lətif Süleymanlı, Nəriman Səttaroğlunu xatırlayır. Sonra da o şöbədə qeydiyyatçı işləmiş Çimnaz xanımı yada salır. Ümumiyyətlə, 1993-cü ildə qəzetimizdə kimlər işləyibsə, hamısının adını və soyadını təkrarlayır. Deyir ki, müəllim, o vaxtlar redaksiyanın dəhlizində bir qaynarlıq vardı. Burda Aqil müəllimin qəbuluna o qədər adam kömək üçün gəlirdi ki, saymaqla bitmək bilmirdi.

Dedim ki, qızım, elə bu gün də Aqil Abbasın yanına çoxlu sayda çətinlikdə olan insanlar təşrif buyururlar. Bu sözü yenicə demişdim ki, bir də gördüm ki, bizim redaksiyaya sarı ona yaxın adam gəlir. Hamısı da rayon adamına bənzəyirdi. Gəlib Aqil Abbası soruşdular və dəhlizdə durub onu gözlədilər. Bir azdan Aqil müəllim də gəldi.

Heç Aqil Abbasın redaksiyada otağı da yoxdur; ya İradə xanımın, ya da Rüstəm müəllimin otağında şikayətçiləri qəbul edir. Bu dəfə də İradə xanımın otağında qəbula gələn o insanların hər birini diqqətlə dinlədi və öz məsləhətlərini verdi. Həmişəki kimi çox səmimi surətdə dedi ki, gücüm nəyə çatır, onu da edəcəyəm. Aqil Abbas həmişə belə olub. Heç vaxt onun yanına gələnləri ümidsiz geri qaytarmayıb.

Bu səhnəni Mənsurə Qaçayqızı da gördü və dedi ki, halal olsun Aqil müəllimə. Elə əvvəllər necə idi, indi də o cürdür, dəyişməyib. Mənsurə Qaçayqızı həm də maraqlı bir uşaq jurnalının redaktorudur. Bu jurnalın adı "Çoxbilmişlər"dir.

Əlbəttə, uşaqlarla öz dilində, öz düşüncəsində və öz aurasında danışanda, onlar hər şeyi olduğu kimi anlayır. Onlarla böyüklər kimi yox, uşaqların dili ilə söhbət eləmək lazımdır. O söhbəti edərsən, uşaqlar da sənə ürəyini açar, qəlbini açar və olduğu kimi hər şeyi dərk edər. Mənsurə xanım deyir ki, mən həmişə çalışmışam ki, səmimi olum. İstər böyüklərə qarşı, istərsə də uşaqlara qarşı. Çünki səmimi olanda hamı sənə ürəyini açır və olduğu kimi qəbul edir və səni dinləyir. Mən ona da çalışmışam ki, harda işləməyimdən və fəaliyyət göstərməyimdən asılı olmayaraq insanların qəlbində xoş izlər qoyum. Heç kəsin ürəyinə, xətrinə dəyməyim. Allaha and olsun, bir adamın qəlbinə toxunanda səhərə qədər yata bilmirəm. Elə düşünürəm ki, səhər tez açılaydı, gedib o adamın qəlbini ələ alaydım.

Biz də bax 1993-cü ildə, bizim qəzetdə işləmiş, çoxlarının yadında, xatirəsində səmimi bir insan kimi qalmış Mənsurə Qaçayqızını heç vaxt yaddan çıxarmırıq.

Ən azından ona görə ki, o sözün həqiqi mənasında çox böyük ürək sahibi, çox böyük ziyalı və çox böyük insandır. Vəzifə sahibi olmaq olar, çoxlu var-dövlət də qazana bilərsən, amma bunların heç biri ilə insanların ürəyində, yaddaşında və qəlbində iz qoya bilməzsən. Amma bir qarabağlı qızı, bərdəli xanım Mənsurə Qaçayqızı bizim yaddaşımızda, ürəyimizdə, 1993-cü ildə belə qalıb: səmimi, sadə və hamı ilə dil tapan bir xanım! Ən başlıcası isə Böyük İnsan, Böyük Adam və Böyük Azərbaycanlı Xanımı. Əlbəttə, yadda qalmaq, ürəklərdə iz qoymaq ancaq yaxşı insanlara məxsusdur. Və yadıma böyük Musa Yaqubun bu misraları düşür:

***Hardasız, hardasız, mələk adamlar,***
***Hardasız, hardasız, çiçək adamlar.***
***Bu şeytan adamlar, böhtan adamlar,***
***Bu tikan adamlar öldürər bizi.***

**Nə yaxşı ki, dünyamızda Mənsurə Qaçayqızı kimi mələk adamlar, çiçək adamlar var. Və nə yaxşı ki, bu adamlar az deyil. Az olsaydı, şeytan və iblis adamlar, tikan adamlar çoxdan dünyamızı dağıtmışdılar və nə yaxşı ki, bu yaxşı adamlar yaşayır, onların ürəyinin işığı, qəlbinin nuru ətrafa nur saçır...**

**Faiq QİSMƏTOĞLU**

# Bakı bulvarının bahalı istirahəti

**Havaların isinməsi təkcə torpağın oyanması, ağacların yaşıla bürünməsi, təbiətin daha da gözəlləşməsi ilə diqqəti çəkmir, həmçinin hər kəsi evdən çölə "qaçırır". Belə havalarda gəzintiyə çıxmağın ayrı ləzzəti var. Bakə əhlinin belə vaxtlard daına adına Bakı Bulvarı dediyimiz Milli Park çatır. Sahil boyu sıralanan gənclərlə yanaşı, ətrafın qayğısından uzaq olan körpələrin, eləcədə yaşlı nəslin ürək dolusu cigərlərinə çəkdikləri yaz havası burada daha təmiz, daha ürək açandır. Bəs görəsən günü - gündən gözəlləşən dənizkənarı parkdakı əyləncə attraksionların və digər xidmətlərin qiymətləri necə, şəhər əhalisinin ürəyincədir? Bu arada bəzi qiymətlərlə oxucudarımızı tanış etmək istəyirik. Burada gəmi ilə gəzmək istəyənlər əvvəllər 1 saat üçün böyüklər 4 manat, uşaqlar üçün 2 manat pul ödəyirdilərsə, indi bu məbləğ standart olaraq böyüklü- kiçikli 5 manat, VIP sərnişinlər isə 10 manat ödəməlidirlər. Mağazada 30 qəpiyə satılan ən ucuz dondurmanı burada 1 manatdan ucuz tapmaq olmur.**

İlk baxışdan azyaşlı uşaqların əylənməsi üçün nəzərdə tutulan qurğuların göz oxşaması qiymətləri ilə heç də ürək açmır. Buradakı qurğuların müxtəlifliyi heç də qiymətlərin müxtəlifliyindən xəbər vermir. Ortabab yaşayan azərbaycanlı əhalisi üçün bu qiymətlər kifayət qədər böyük görünür. Bakı bulvarında həm böyüklərin həm də azyaşlıların mənalı və səmərəli istirahəti üçün hər bir şərait yaradılsa da, əfsuslar olsun ki qiymətlərin at belinə qalxması çoxunun arzusunu gözündə qoyur vəvə bu istək elə istək olaraq qalır. İki uşağı iilə bulvara gəzməyə çıxan ailə, təbii ki, uşaqlarının yanında biabır olmamaq üçün aşağısı 50 manat xərcləməlidir. Elə burvara gəzməyə çıxanlar da biz deyəni deyir.

Təqaüdçü Arzu xanım deyir ki, beş nəvəsi var və imkan tapdıqca nəvələrini həm təmiz hava almaq, həmdə dincəlmək üçün Xəzərin sahilinə gətirir. Elə gətirdiyinə peşiman olmasına heç də çox vaxt lazım gəlmir. Bulvarda uşaqlar üçün nəzərdə tutulan çoxlu sayda qurğular və oyun yerləri var. Uşaqların oynamağa, dincəlməyə haqqı var. lakin işbazlar və diribaşlar süni qiymət qaldırımı ilə nənəni nəvələrinin yanında utandıdırır. Arzu xanım qiymətlərin aşağa olmasının uşaqların oyun oynamsına və istirahət etməsinə müsbət təsirini göstərəcəyini də qeyd edir.

Evdar qadın olan Nərmin xanım İsazadə də qiymətlərin bahalığından narazıdır: "Həyat yoldaşımın qazancı imkan vemir ki uşaqlarımı ürəyim istəyəndə heç olmasa bulvara gəzintiyə gətirim, onlarda burdakı karusellərdə, uşaq minik avtomobillərində və digər yelərdə əylənsinlər. Çox istərdim, amma necə gətirim?"

Şəhər sakini Eynulla Mərdənov isə bizimlə söhbətində 3 ildən artıqdır ki Bakı Bulvarında olmamasını dedi. Onu da vurğuladı ki, 3 il bundan əvvəl də bulvarda hər şey baha idi: "Bulvarda nə vaxt qiymətlər ucuz olub ki?"

Özünü Aydın Səmədov kimi təqdim edən digər həmsöhbətimiz Milli Parkda hər şeyin -2-3 dəfə baha oldüğünü dedi: "Burda qiymətlər od tutub yanır, adi 30 qəpiklik suyu 1 manata satırlar"




Rayondan qonaq gələn nəvələrini bulvarda gəzməyə gətirən Səlimə sualımızı eşidən kimi sanki, bizi gözləyirmiş kimi, başladı şikayətinə: "Uşaqlar üçün attraksionlar, içməli sular çox bahadır. Məcburuq suyu da evdən gətirək. Qiymətlərdə heç olmasa endirim etsələr, çox yaxşı olar".

Rasim Orucov da uşaqlar üçün attraksionların baha olduğunu deyir: "İstirahət üçün yaradılan şəraitdən razıyıq. Ancaq qiymətlər çox bahadır. Uşaqlarımız attraksionlara həsrətdir. Əvvəlki attraksionların ən ucuzu 60 qəpik idi. İndi isə ən azı 2 manat verməliyik. Buna da həmişə imkanımız çatmır".

Səbinə Ağayeva sərinləşdirici içkilərin qiymətində şikayətlənərək : "Milli Parkda mağazada 30 qəpiyə ala biləcəyimiz kiçik "jalə" şirələri 60 qəpikdir. "Coca-cola", "Sprite" və "Fanta" şirələrinin də qiyməti dəyişməyib - yarım litr üçün 1 manat ödəyirəm. Digər suların qiyməti isə çəkisi və növünə görə qiymətlər dəyişir".

Samir Mahmudov adlı respondentimiz Dənizkənarı Bulvarda fəaliyyət göstərən restoranların qiymətlərindən narazılığını bildirdi: "Bir dəfə bulvara gələndə xərclədiyim pulu hesablamışam. Dörd şiş kababın qiyməti 10 manatdan 40 manat edir. Hər biri 3 manatdan salata 12 manat alırlar. Təbii şirənin biri 3 manatdır. Dörd nəfərə iki çaynik çay 20 manat edir. Hesablayanda 4 nəfərlik ailə üçün 100 manat tutur. Karuseldə 5 dəqiqə fırlanmağın qiyməti isə 2 manatdır. İki uşağı iki karuselə mindirəndə 8 manat udir. 5 dəqiqə maşınla gəzintidə bir manatdır. İki manat da bunu hesablayıram. Burada aldığım xırda-xuruşları, pop-kornu, şəkərli pambığı, 10 manat da bunların qiyməti gəlib çıxır. Belə çıxır ki, mənim ailəmlə bir dəfə bulvara gəlib istirahət etməyimə 150 manat lazımdır ".

**Yeri gəlmişkən, qonşu dövlət olan İranda hər yaşayış tassvində insanların istirahəti üçün parklar salınıb ki, insanlar burada rahat istiraət edir, idmanla məşğul olmaq üçün hər cür şərait yaradılıb. Təbrizin parklarında attraksionların əksəriyyəti pulsuz fəaliyyət göstərir. Bunun üçün sadəcə olaraq parka girərkən İran pulu ilə 5 min rial(bizim pulla havayı) ödəmək kifayət edir. Parkın girişi qapısından içəri daxil olan kimi oranın işçisi uşaqlara attarksionlardan istifadə üçün biletləri havayı verir. Bundan başqa da yeyib içmək də el dilində desək su qiymətinə. Adamın vallah paxıllığı tutur...**

**İltifat HACIXANOĞLU**

## *İrandan Türkiyəyə raket atan 3 terrorçu məhv edilib*

***Türkiyənin Hakkari şəhərinin Yüksəkova rayonuna İran ərazisindən raket atan terrorçulardan 3-ü zərərsizləşdirilib.***

***PKK terror qruplaşması bölgədə beton divar tikintisində işləyən şəxslərin təhlükəsizliyini təmin edən METİ (Mina, əldəqayırma partlayıcıların təsbiti və məvhi dəstəsi) əməkdaşlarını raket atəşinə tutub. Buna cavab olaraq ərazidə keçirilən antiterror əməliyyatı nəticəsində 3 terrorçu məhv edilib. Qeyd edək ki, hazırda Türkiyə İranla sərhədində beton divar çəkir.***



***Məqsəd terrorçuların, qaçaqmalçıların və qanunsuz miqrantların Türkiyə ərazisinə keçməsinin qarşısını almaqdır. Divarın hündürlüyü 3 metr, eni 30 sm-dir.***

***MEHRİBAN***

Hörmətli redaksiya.

Mayın 21-də dünya şöhrətli Xalq rəssamımız Tahir Salahov vəfat etdi. Bu acı xəbərdən çox üzüldüm. Tahir müəllimin vəfatı təkcə Azərbaycan mədəniyyəti üçün yox, bütün dünya mədəniyyəti üçün ağır itkidir. Tahir Salahov mənim ən çox sevdiyim rəssamlardan idi. Mən lap gənc yaşlarımdan bu böyük rəssamı görmək, şəxsən onunla tanış olmaq arzusunda olmuşam... Nəhayət, 2009-cu ilin 8 mayında bu arzum reallaşdı. Mənim onunla görüşümə şəraiti, Tahir Salahovun İçərişəhərdəki qonşusu Məzahir yaratdı. Həmin gün Tahir müəllimlə onun İçərişəhərdəki mənzil muzeyində (o vaxt səhv etmirəmsə, həmin ev, hələ muzey statusu kimi qeydiyyata alınmamışdı) görüşdük. Bir xeyli söhbət etdik. Sonra təxminən yarım saat ərzində İçərişəhəri birlkdə gəzdik. Həyat yoldaşı Varvara xanım da bizimlə birlikdə idi və Varvara xanım mənim xahişimlə ev muzeyinin qarşısında Tahir müəllimlə mənim şəklimi də çəkdi. Həmin görüşdə Tahir müəllim mənə, avtoqrafla "Qara Qarayevin portreti"nin surətini bağışladı... Ayrılarkən mənə öz əli ilə ev telefonunun nömrəsini də yazıb verdi... Yenidən görüşmək ümidi ilə ondan ayrıldım... Tahir müəllim məni yadından çıxarmamışdı. Elə həmin ilin noyabr ayının 3-də onun qonşusu Məzahir mənə zəng etdi:

-Tahir müəllim, sənə çatdırmaq üçün mənə 3 kitab verib - dedi.

Həmin gün Bakıda, Elmlər Akademiyasının Şərqşünaslıq İnstitunda işləyən oğlum Əbilə zəng etdim. Oğlum kitabları Məzahirdən alıb mənə göndərdi.

Bu kitablardan biri Tahir Salahovun albomu, ikincisi Fazil Rəhmanzadənin Tahir Salahov haqqında yazdığı "Böyük yaşantının naxışlari" kitab albomu, üçüncüsü isə Tahir müəllimin qızı, rəssam Aydan Salahovanın albomu idi. Tahir müəllim kitablardan birinə, məni duyğulandıran avtoqraf da yazmışdı: "Əzizim Etibar Əbilova böyük hörmətlə. Həyatında, ailəndə, xeyirxah fəaliyyətində sənə xöşbəxtlik və uğur arzulayıram. Tahir Salahov 3 noyabr 2009."

Bildiyimiz kimi Tahir müəllim Moskvada yaşayırdı. Eyni zamanda tez-tez Bakıya da gəlirdi və mən onunla Bakıya gəlişlərinin birində yenidən görüşəcəyimi zənn edirdim. Amma atalar demiş, sən saydığını say, gör fələk nə sayır.

2010-cu ilin iyul ayında, oğlum Əbil, çox qısa, cəmi bir neçə gün çəkən qəfil və amansız xəstəlikdən dünyasını dəyişdi. Oğlumun vəfatı mənim bütün arzularımın, istəklərimin... üzərindən qara bir xətt çəkdi. Demək olar ki, 8 ilə yaxın Neftçaladan kənara çıxmadım. Tanıdığım insanların əksəriyyəti ilə, o cümlədən Tahir müəllimlə əlaqələrim kəsildi.

Beləliklə 2009-cu ilin 8 mayındakı görüşümüz onunla ilk və son görüşüm oldu.

O vaxt, 2009-cu ilin mayında, Tahir müəllimlə o unudulmaz görüşümdən sonra, həmin görüş haqqında təəssüratlarımı qələmə almışdım. Bu gün arxivimdən həmin yazını axtarıb tapdım və həmin yazının üzərində heç bir düzəliş, əlavələr etmədən çap etdirmək qərarına gəldim.

Ümid edirəm ki, bu xatirə məqaləmi, mənim Tahir Salahov sənətinə, şəxsiyyətinə olan böyük sevgimin kiçik nişanəsi kimi qəbul edəcəksiniz.

23 may 2021-ci il.



# TAHİR SALAHOVLA GÖRÜŞ

***

Tahir Salahovla görüşdən əvvəl, onun son illərdə çəkdiyi bir neçə tablosuna baxmışdım. Bu tablolar mənə həddən artıq güclü təsir bağışlamışdı. İndiki işləri 40-50 il bundan əvvəl çəkdiyi məşhur tablolardan, portretlərdən bir o qədər də fərqlənmirdi. Dahi rəssamın keçən əsrin 60-cı illərindəki dinamikliyi, cəsarəti, yenilik ehtirası, indiki işlərində sanki bir az da artmışdı. Tahir Salahovla söhbət edərkən, bir daha bu qənaətə gəldim ki, dahi rəssamlar üçün yaşın elə bir əhəmiyyəti yoxdur. Əgər ruhən cavansansa, 80-90 yaşında da börük işlər yaratmaq olar. Mənim bu fikirlərimlə Tahir Salahov razılaşır və bu barədə misal da çəkir:




**-Dünyanın ən böyük rəssamlarından olan Tisian ən məşhur əsərlərindən bir neçəsini 90 yaşından sonra çəkib-deyir.**

Tahir Salahovu televiziyada adətən rus dilində danışan görmüşük. Bunun da obyektiv səbəbləri var. Rus dilində təhsil alıb, uzun illərdir ki, Moskvada yaşayıb-işləyir (1973-cü ildən başlayaraq, düz 20 il SSRİ Rəssamlar İttifaqının birinci katibi olub).

Amma mənimlə Azərbaycan dilində danışır. Hər bir sözü ayrılıqda tələffüz edir. Sanki səhv edəcəyindən ehtiyat edir. Amma bu ilk baxışda belə təsir bağışlayır. Tahir Salahov Azərbaycan dilini incəliklərinə qədər bilir.

Tahir Salahov çox erkən, keçən əsrin 50-ci illərinin axırlarında məşhurlaşıb. "Səhər eşalonu","Təmirçilər","Sənə, bəşəriyyət","Qara Qarayevin portreti" və s.əsərlərini çəkəndən sonra şöhrətin ən yüksək zirvəsinə yüksəlib və bu zirvəni ömürlük fəht edib. Şöhrətin ən uca zirvəsində qərar tutmuş bu insan olduqca sadədir. Onunla İçərişəhərin dar, dolanbac küçələrini gəzərkən bunu hər sözündə, hər hərəkətində hiss edirəm. Bunu onun özünə də deyirəm. Gülümsəyir və:

**-Başqa cür ola da bilməz-deyir.**

Onun yaradıcılığı haqqında öz bilgilərim daxilində danışıram. Yaratdığı portretləri "Koroğlu","Sabir", "Qara Qarayev", "Fikrət Əmirov", "Şastakoviç" haqqında mülahizələrimi söyləyirəm. Hələ məktəbli ikən Nizami adına Ədəbiyyat muzeyində gördüyüm "Koroğlu"portretinin məndə yaratdığı və bu günə qədər də məni tərk etməyən əsrarəngiz təəssüratlarımdan bəhs edirəm. Son işlərindən söz salıram. Yaradıcılığında yenilik kimi qiymətləndirilən və artıq klassikaya çevrilən Rastrapoviçin portreti haqqında danışıram. Rastrapoviçin daxili dünyasının və dünyadakı şöhrətinin qovuşuğunu müstəsna ustalıqla əks etdirməyi bacaran Tahir Salahov bu portretlə dünya təsviri sənətinə yeni, kamil bir əsər bəxş etmişdir. Tahir müəllim diqqətlə qulaq asır.Əksər fikirlərimlə razilaşır da.

Mən Tahir Salahov sənətinin pərəstişkarıyam. Azərbaycanın bütün tarixi ərzində yetirmiş olduğu nadir dahilərindən biri də Tahir Salahovdur. Onun haqqında mətbuatda oxuduğum bütün yazıları kəsib saxlamışam və Tahir Salahovun İçərişəhərdəki qonşusu və dostu Məzahir Bakıdan mənə zəng edəndə və deyəndə ki: -Tahir müəllim Bakıdadır, sənin haqqında danışmışam, gözləyir, gəl görüş (məni Tahir müəllimlə görüşdürməyi Məzahirdən mən xahiş etmişdim)-həmin qəzet və jurnal parçalarını da özümlə götürdüm. Müxtəlif illərdə çap olunmuş məqalələrdi. Hətta keçən əsrin 60-cı illərinə aid olanları da var. İndi həmin qəzet və jurnal parçalarını qovluqdan çıxarıb ona göstərirəm. Baxır, bir az da heyrətlənir. İçəridən həyat yoldaşını da çağırır. Birlikdə, saralmış qəzet və jurnal parçalarına baxırlar.

**-Maraqlıdır, çox maraqlıdır... Mən Sizə təşəkkür edirəm-deyir.**

Bəzi qəzet parçaları onda xüsusi təəssüratlar yaradır. Yəqin onun yaradıcılığına olan böyük marağıma görə Tahir müəllim məndən:

**-Bəs biz əvvəllər niyə tanış olmammışıq?-deyə soruşur.**

**-İmkan olmayıb Tahir müəllim. Siz Moskvada yaşayırsınız. Bakıya gəlişinizdən də xəbər tutmaq olmur.**

Neftçala ilə Bakının arasındakı məsafəni soruşur.

**-Mən Sizə evimin telefon nömrəsini verim. Gələndə əvvəlcədən mənə zəng edin- deyir.**

Yuxarıda dediyim kimi, Tahir Salahov Moskvada yaşayır. Bakıya gələndə Nardarandakı bağ evində dincəlir-işləyir. Bir də onun İçərişəhərdə, 2 mərtəbəli ev muzeyi, qaleriya-emalatxanası var. Mən yenə də çox sevdiyim "Qara Qarayevin portreti"ndən söz salıram.

**-Mən bu portreti çəkmək üçün bir il hazırlıq işi gördüm. Bir il Qara Qarayevin iş prosesini izlədim. O vaxt Opera və Balet teatrında Qarayevin "İldırımlı yollarla" baletinin məşqləri gedirdi. Qarayev hər gün məşqə gəlirdi. Mən də orada olurdum. Hər gün Qarayevin musiqisinə qulaq asırdım. Onu bir bəstəkar kimi də, bir insan kimi də öyrənə bildim. Nəticədə belə bir əsəri ortaya qoya bildim.**

**-Möhtəşəm əsərdir-deyirəm.**

"Qara Qarayev" portretinin repreduksiyasını avtoqrafla yazıb mənə bağışlayır. Yazan zaman əlinə baxıram. Bu əl nələr yaratmayıb?

Qələmi bərk-bərk tutub. Büiün diqqətini cəmləşdirib yazır. Avtoqrafı rus dilində yazır: "Əzizin Etibar Əbilova-böyük hörmət və ürəkdən gələn dostluq hissləri ilə. Sağ olun. Tahir Salahov. 8 may 2009."

Təxminən bir saatdan artıqdır ki, onunla söhbət edirəm. Dahi şəxslərlə görüşmək adama həmişə qismət olmur. Amma hiss edirəm ki, artıq ayrılmaq məqamıdır. Ayrılarkən:

**-Artıq telefonum Sizdə var-deyir-İstədiyiniz vaxt zəng edin, gəlin-deyir.**

**-Sağlıq olsun Tahir müəllim.**

**ETİBAR ƏBİLOV.**
**Neftçala şəhəri.**
**12 may 2009.**

---

Əntiqə Rəşid

# Çoxqohumlu bəxtəvərlər...



*Deyir günlərin bir günü Molla Nəsrəddin eşşək almaq üçün bazara çıxır. Hərlənir-fırlanır görür ki, bir kişi "saz" bir eşşəyə müştəri axtarır. Nəisə, Molla eşşəyi alası olur. Elə eşşəyin noxtasını əlinə alanda satıcı deyir ki, ay molla uzaq bir vilayətdən gəlmişəm artıq gün dönüb, evə qayıtsam qaranlığa düşəcəyəmm, caqqal-canavara yem olacagam. İcazə versən gecəni sizdə qalaram, səhər obaşdan da durub gedərəm.*

*Molla məmnuniyyətlə razılaşır, kişini evinə aparır. Süfrə açdırır, yeyirlər-icirlər , yatırlar. Səhər tezdən eşşək satan cıxır gedir evinə...*

*Aradan 3-4 gün kecmiş molla görür ki, qapısı tappa-tarap döyülür. Gedir qapını açır görür, tanımadığı bir kişi. Soruşur; nə istəyirsən?! Qonaq deyir ki, bəs mən sizə eşşək satanın əmisiyəm, gəlmişdim şəhərə, geri qayıtmağa pulum qalmayıb ki, atla-arabayla evimə dönüm. İcazə ver bu gecəni sizdə qalım, səhər tezdən gedim öz evimə.*

*Molla fikirə gedir, amma ürəyi yol vermir ki, bir qərib gecəni çöldə gecələsin. Deyir gəl. Buna da süfrə acdırır, yemək verir, sabahısıda yola salır. Molla bunu yola salıb yenicə yerini rahatlıyır ki, bir də görür, bir kişi ilə bir qadın "Ay Molla hay" deyib bunu cağırırlar. Molla soruşur ki, nədi nə istəyirsiniz?, Kişi utana-utana deyir ki, bu qadınla kəbin kəsdirmək ücün qazinin yanına gəlmişdik, kəbini kəsdirdik, dedik: dayım sizə eşşək satıb tanış olmusunuz, doğmalaşmısınız, elə biz də gəldik ki, doğmalarımızla görüşək, sabah da burdan yola cıxaq evimizə tərəf.*









*Molla az qalır, ağzına gələni desin, bunları söysün bulasın, "Lənət şeytana" deyib, dayanır. Bunları evə dəvət edir. Onlarda necə lazımdı yeyirlər, icirlər, sabahı gündə çıxıb gedirlər.*

*Molla da acığından az qalır başını divara çırpsın ki, lənətə gəlmiş eşşəyi aldığı gündən nə rahatlığı var, nə də qarın dolusu yeməyi.*

*Elə beləcə düşündüyü vaxtda baxır ki, bir dəstə adam dayanıb bunların qapısının ağzında. Mollanın çölə çıxmağını gözləyirlər. Molla qapını açıb bunlardan kim olduqlarını, niyə gəldiklərini soruşanda xorla deyirlər ki, bəs biz o eşşəyi...*

*Çin vurur Mollanın başına, hikkəsindən səsini atır başına, bağıra-bağıra: "Ə, bu bəxtəvər eşşəyin nə çox qohum - əqrəbası varmış! Ay çox qohumlu eşşək , qohumların batsın"- deyir.*

*Qonaqlar da suyu suzulə-süzülə ordan uzaqlaşırlar.*

*Sözümün canı var...*

*Deməli, Ermənistanın iki nümayəndəsi- Georgi Vanyan və Yuri Manvelyanın prezident İlham Əliyeva hüquq-mühafizə orqanları tərəfindən saxlanılan erməni "hərbçilərin" azad edilməsi ilə bağlı müraciət ediblər. Hə bunlar ermənidir də bunu başa düşdük! İndi cümlənin arxasını oxuyun!Azərbaycanın bir neçə vətəndaş cəmiyyəti üzvləri həmin müraciətə qoşulublar!!!*

*Arzu Abdullayeva, Əli Abasov, Zərdüşt Əlizadə, Sabit Bağırov prezidentdən xahiş edirlər ki, xoş məram nümayiş etdirərək Azərbaycanda həbsdə olan və istintaqın barələrində hər hansı ciddi cinayət əməli aşkar etmədiyi erməni hərbçilərin azadlığa buraxılması barədə sərəncam versin.*

*Şəhid olan hərbçilərimizi hec hesaba salmıram, deyək ki, öldürüblər də, özləri də şəhid olub. Yaxşı, bəs 1987-ci ildən bu günə qədər ermənilər dünyanın gözü qarşısında dinc əhalimizi amansızcasına məhv edəndə, onlara müxtəlif işgəncələr verəndə, qapısında qul kimi işlədən də Arzu Abdullayeva, Əli Abasov, Zərdüşt Əlizadə, Sabit Bağırov haradaydılar? Niyə səsləri cıxmırdı? Niyə Ermənistan hökümətinə bircə dəfə də olsa müraciət edib, hec olmasa o dinc insanların nəşlərini almağa təşəbbüs göstərməyiblər? Dünya yaranandan üzü bəri (tək şəhidlərimizi demirəm), ermənilərin əliylə öldürülən qocaların, qadınların, uşaqların ahı, naləsi, qanı tutsun sizi!*

*Elə bayaqdan oturub, türklər demiş, qara-qara düşünürəm, bu eşşəklərin nə çox qohum-əqrəbası varmış... Ay çox qohumlu eşşək, qohumların batsın...*

---

## Elon Maskın başına bəla olan tvitləri



**ABŞ-ın öndə gedən iqtisadiyyat qəzetlərindən olan Wall Street Journal Teslanın ABŞ Qiymətli Kağızlar və Mübadilə Komissiyası ilə əldə etdiyi razılaşmaya əməl etmədiyini ortaya çıxartdı.**

**Sənədlərdə Elon Musk tərəfindən 2019 və 2020-ci illərdə paylaşılan bəzi Twitter paylaşımlarının müqaviləni pozduğu görülsə də, Tesla ilə SEC arasındakı razılaşmada Muskın tvitlərinin Teslanın vəkilləri tərəfindən təsdiqlənməsinin və hər hansı bir fərziyyəyə səbəb olmamasının gərək olduğu bildirildi.**

**Tesla Maskın bazara yön verən məlumatları Twitter-dən paylaşmasından sonra SEC ilə 2018-ci ildə müqavilə imzalanmış və məşhur iş adamının paylaşımlarının Tesla tərəfindən təsdiqlənməsinə söz verilmişdi.**

**Qeyd edək ki, həmin dövrdə Mask və Tesla 20 milyon dollar cərimə ödəmiş və müqavilənin şərtlərinə əməl edəcəklərinə söz vermişdilər.**

**Eminquey**

---

# Yoqa ilə koronavirusa qalib gəlmək olar

## Hindistanda Baba Ramdev qalmaqalı

**Hindistanda bir yanda həkimlər koronavirusla mübarizə aparərkən, bir yanda da yoqa ustası Baba Ramdevin iddialarına etiraz edənlər xalqı məlumatlandırmağa çalışırlar. Ramdev sonuncu dəfə üzünü tibb işçilərinə tutub - "Özlərini belə xilas edə bilmirlərsə, bunlar necə həkimdirlər?" - deyərək diqqət çəkmişdi.**

Minlərlə hindli həkim yoqa və milli tibbin COVİD19-a qarşı peyvəndlərdən daha güclü müdafiə üsulu olduğunu iddia edən Baş Nazir Narendra Modinin yoqa ustasına etiraz ediblər.

Həkimlər iqtidardakı Bharatiya Janata Partiyası ilə yaxın bağları olan yoqa ustası Baba Ramdevi öz dərman şirkəti Patanjali Ayurvedi tanıtmaq üçün insanların peyvəndə qarşı tərəddüdlərini artırdığını deyir. Ramdev peyvənd edilməməsini, dərmanların da insanları öldürdüyünü tez-tez dilə gətirir. Hindistan Tibb Dərnəyinin Başçısı Dr John Austin Jayalal "Onun ifadələri şübhəsiz ki qarışıqlığa səbəb olur. Mərkəzi hökumət buna son qoymalıdır " - deyə açıqlama verib.



### *ÖZ DƏRMANINI SATMAQ ÜÇÜN EDİR*

Ramdev və tibb mütəxəssizləri arasındakı gərginlik yoqa ustasının həkimlərin və tibb işçilərinin də qatıldığı bir paneldə virusa qarşı Coronil adlı dərmanı bazara təqdim etdiyi fevral ayından bu yana daha çox dərinləşdi.

Xəstəxanaların vəziyyəti ağır xəstələrlə dolduğu, çarpayı, oksigen, dərman və işçi personalı qıtlığı ilə mübarizə etmək məcburiyyətində qaldığı ikinci Covid dalğası ərəfəsində isə yoqa ustasına olan qəzəb daha da artdı. Son iki ayda 170 mindən çox hindli koronavirusdan öldü.

Yoqa kanalı milyonlarla insan tərəfindən izlənən Ramdev modern tibbi "axmaq bir elm" adlandırdı və bir videosunda izləyicilərinə bir çox hindli həkimin peyvənd olunmağına baxmayaraq koronavirusa qalib gələ bilmədiyini deyib.

### *HƏKİMLƏR ETİRAZDA*

Ramdevin dediklərinə səssiz qalan hökümətə qarşı etiraza qoşulan həkimlər qollarına qara bağlayıblar Onlar etiraza qatılsalar da, xəstələrin müalicəsinin axsamadığını da dilə gətiriblər.

**Köhnə başçısı Coviddən ölən Hindistan Tibb Dərnəyi Ramdevi dərman formullarının alınması üçün xalqa belə bir qorxu, təlaş və məyusluq təlqin etməkdə günahlandırıb.**

**Eminquey**

---

# "Rystad Energy" "Şahdəniz-3" mərhələsinin perspektivlərindən danışıb

**"Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin üçüncü mərhələsinin başlaması perspektivləri yaxın deyil.**

Bunu Norveçin "Rystad Energy" tədqiqat və konsaltinq şirkətinin baş analitiki Svapnil Babele deyib. O bildirib ki, BP "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsinə 2018-ci ildə başlayıb: "Hazırda operator yataqda qazma işləri aparır. Yaxın bir neçə ildə yataqdan 25 milyard kubmetrədək qaz hasil olunması gözlənilir. "Şahdəniz-3" mərhələsinin işlənməsi perspektivləri bir qədər uzaqdır. Hazırda BP "Şəfəq-Asiman" blokunda və Abşeron yarımadasının dayaz sularında quyu qazıntıları ilə məşğuldur. "Şahdəniz" yatağında əlavə qaz ehtiyatlarının təsdiqlənməsi üçün kəşfiyyat və sonrakı qiymətləndirmə qazmasına bir neçə il tələb oluna bilər". S.Babele qeyd edib ki, yatağın gələcəkdə işlənməsi ixrac üçün mövcud infrastrukturdan asılı olacaq, belə ki, Azərbaycanın yaxın bir neçə il ərzində "Abşeron" və "Ümid-Babək" kimi iri qaz-kondensat yataqlarını istismara vermək kimi planları var.



**MEHRİBAN**

---

# "Tesla" 6 minə yaxın avtomobili geri çağırır



**ABŞ-ın "Tesla" elektromobil şirkəti ölkədə 6 minə yaxın avtomobili geri çağıracaq.**

**Bu barədə ABŞ-ın Yollarda Hərəkət Təhlükəsizliyi Milli İdarəsi bildirib.**

**Qeyd olunur ki, avtomobillər əyləc dəstəyinin boltlarının möhkəm bağlanmaması ilə əlaqədar geri çağırılmalıdır.**

**Geri çağırılma qərarı 2019-2021-ci illərdə istehsal olunmuş "Model 3" və 2020-2021-ci illərdə istehsal olunmuş "Model Y" modellərinə şamil olunur.**

**Qeyd edək ki, bu ilin əvvəlində "Tesla" monitorla əlaqədar problemlərə görə 135 minə yaxın avtomobili geri çağırmışdı.**

**MEHRİBAN**




# Tarixi Gerçəkliyin Fədaisi

**Bu gün təkcə Azərbaycanda deyil, bütün dünyada tarixi ədalətsizliyə qarşı köklü işlər görülür. Xüsusilə keçmiş sovetlər birliyinə daxil olan ölkələrin tarixşünaslığına yeni baxış diqqət mərkəzindədir. Demək olar ki, həmin ölkələrin tarixçi alimləri sovet ideologiyasının ortaya qoyduğu tarixi yenidən müasir baxışla araşdırmağa və yol vermiş nöqsanı aradan qaldırmağa çalışırlar. Bu mənada Azərbaycan tarixçiləri də köklü şəkildə vətən tarixinə bu və ya digər səmtlərdən yeni bir nəfəs verməyə çalışırlar. Belə ki, sovet dönəmində saxtalaşdırılmış, təhrif edilmiş dövrün ideologiyasına uyğunlaşdırılmış tariximiz arxivlərdəki mənbələrə söykənilərək daha dəqiq formada ortaya çıxarılır. Bu məsələdə Tarix İnstitutunun tarixçi alimlərimizin xidmətlərini görməmək, qiymətləndirməmək doğru olmazdı.**

Hələ tələbəlik illərimdən tanıdığım dəyərli dostum, professor Vaqif Şirinoğlu untversitet illərindən başlayaraq tariximizin müxtəlif dövrlərini gözdən keçirməyə, onların qaranlıq məqamlarına aydınlıq gətirməyə başlamışdır.

Necə deyərlər, bu istək də onun tarixi dərinliklərinə işıq salmağa, bu yolda yorulmadan çalışmağa həvəsləndirdi. Təbii ki, professor Vaqif Abışovun həm ölkəmizin, həm də Moskvanın, Türkiyənin, eləcə də digər ölkələrin arxivlərində yorulmadan apardığı araşdırmalar son nəticədə samballı elmi-məqalələrə, kitablara çevrildi.

Bugünlərdə tələbə dostum özünün samballı bir kitabını mənə hədiyyə etdi. Bu kitab "Şimali Azərbaycanın Sovet işğalının tarixşünaslığı" adlanır. Vaqif Şirinoğlu məhz zamanında Sovet Azərbaycanı kimi SSRİ tərkibinə daxil olmuş, daha doğrusu, zorla sovetləşdirilmiş ölkəmizin tarixşünaslığına bu kitabla yeni bir baxışı ortaya qoyubdu.

Onun çoxsaylı mənbələrə, arxiv materiallarına söykənən araşdırmaları ölkəmizin işğal tarixşünaslığının ayrı-ayrı qatlarının elmi mənbə kimi həm tarixçilərimizə, həm də tarix elmi üzrə təhsil alanlara yaxşı bir hədiyyədir. Bu samballı kitabı vərəqlədikcə məlum olur ki, sovet dönəmində həmin dövrün tələblərinə bütövlükdə vətəndaşlarımıza zorla öyrədilən Sovet Azərbaycanı tarixi əslində xeyli saxtalaşdırılmışdır. Məhz Vaqif Şirinoğlunun apardığı araşdırmalar az-çox tarixdən xəbəri olanın məsələyə müqayisəli baxışı nəticəsində alimin nə qədər böyük bir iş gördüyünü müəyyənləşdirmək imkanı verər.

**Bu mənada Vaqif Şirinoğlu elmi ictimaiyyət və araşdırmaçılar, tələbələr, müəllimlər və ümumiyyətlə oxucular üçün AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının Qərarına əsasən çap olunmuş bu kitabı dəyərli bir mənbədir. Bu mənbəyə söykənərək zaman-zaman saxtalaşdırılmış və məqsədli şəkildə təhrif edilmiş tariximizin gerçək mənzərəsini, onun əsl mahiyyətini öyrənə bilərik. Elə bu xidmətə görə tarixçi alimimizə, Vaqif Şirinoğluna təşəkkürlərimi çatdırıram. İnanıram ki, tariximizi araşdırmaqdan, təbliğ etməkdən yorulmayan dostum bizi daha böyük nailiyyətləri ilə zaman-zaman sevindirəcəkdir. Yorulmayasınız professor Vaqif Şirinoğlu.**

**Əbülfət MƏDƏTOĞLU**

# Unudulmaz Müşfiq

## (İyunun 4-də M.Müşfiq dünyaya gəlib)



*VAQİF YUSİFLİ*

*Yadımdadır, deyərdilər,*
*Bu dünyada*
*Müşfiq adlı*
*Çox gözəl bir şair olub.*
*Hərəkəti, məhəbbəti,*
*Həqtqəti*
*şeir olub.*
*Şeir olub göylər kimi,*
*yerlər kimi aydın, açıq.*
*Hər kəlməsi gəncliyinin*
*vüqarına bir yaraşıq.*
*O ləbaləb dolu idi*
*Şeir ilə, sənət ilə;*
*Ölümdən də qorxmaz olan*
*qüdrət ilə.*
*Bu gün onun həyatında*
*Bir bahardır.*
*Bu dünyada Müşfiq vardı*
*Bu dünyada yenə vardır.*

Gözəl şairimiz Əli Kərimin bu şeiri Mikayıl Müşfiqin sənət dünyasını, onun şeirə, poeziyaya tükənməz məhəbbətini əks etdirir və doğrudan da, Müşfiq sənəti Azərbaycan ədəbiyyatında əbədidir. Onu nə sağlığında rast gəldiyi təqiblər, nə də repressiya bizdən ayıra bilmədi.

Bu dünyada, elə bizim məmləkətdə şair çoxdu: dahi şairlər, istedadlı şairlər, nakam şairlər, məcnun şairlər… Mən Müşfiqi onların hər birinə aid edirəm. Müşfiq şeirin özü idi və subyektiv fikrimdir deyim-Azərbaycan poeziyasında Əli Kərim qədər həm şair taleyi, həm də şeirləri qədər Müşfiqi xatırladan ikinci bir şair tanımıram.

*Keçən günlərimi xatırlayarkən*
*Sevdalı dillərin yadıma düşdü.*
*Xəyalın qarşımda canlandı, birdən*
*Göyərçin əllərin yadıma düşdü.*

Bunu Müşfiq yazıb.. Bəlkə də dünyanın heç bir şairi sevgilisinin əllərini göyərçinə-quşa bənzətməyib. Əgər bənzədiblərsə, bu, Müşfiqdən sonra olub.

*Ovçuluq əsrimi əsrin, ey qadın?*
*Söylə övladısan hankı səyyadın,*
*Sən gözlərinləmi yoxsa ovladın*
*Göyərçin qəlğimi bir laçın kimi.*

Yenə göyərçin. Və bəlkə də dünyanın heç bir şairi sevən qəlbi göyərçinə bənzətməyib. Bənzədiblərsə, bu, Müşfiqdən sonra olub.

Müşfiqin sevgi şeirlərini də elə o zərif göyərçinə bənzətmək olar.

Müşfiqin sevgi şeirlərində yaşarı duyğular, çırpıntılar görürük. Onun sevgi şeirləri adi sevgi şeirləri deyildi, onun sevgisi vüsala yetəndən sonra boyatlaşan, busənin dadını görəndən sonra tamını itirən sevgiyə oxşamırdı.

*Onunçun çırpınır qolum-qanadım,*
*Onu yerdə deyil, göydə aradım,*
*Gör nə bədbəxtəm ki, axırda adım*
*Xırda uşaqların dilinə düşmüq.*

*Sən canı canandan ayrı tutmadın,*
*Odur ki, vəfasız deyildir adın.*
*O səni unutdu, sən unutmadın,*
*Yaşa məhəbbətim, yaşa ürəyim!*

O səni unutdu, sən unutmadın. Əslində, Müşfiq əsrinin sevgi lirikası bu bircə misranın içinə sığışa bilər. Niyə söhbətə Müşfiqin sevgi şeirlərindən başladım. Bu gün sevgidən yazan şairlərimiz var ki,yaşanılmamış, duyulmamış hisslərini şeirəç çevirirlər. MÜşfiqin sevgi ltrieasını oxusunlar…

Müşfiqi unutmaqmı olar? "Deyirlər ki, bizdən əbədi ayrılanlar gənc qalırlar. Müşfiqin mehriban surəti də mənim xəyalımda bu vaxta qədər cavan qalıb. Müşfiqi saçları ağarmış, üz-gözü qırışmış bir qoca kimi təsəvvürümə gətirə bilmirəm"-ustad Rəsul Rzanın Müşfiiq məhəbbətindən doğub bu sözlər.

Poeziyada Müşfiq yolu var. O yol ancaq Müşfiqindir. O yolda Müşfiq sosializm cəmiyyətinin "gözəlliklərindən də" vəcdə gəldi, 28 apreli də tərənnüm etdi, amma Müşfiq olaraq qaldı. O şeirləri yaza-yaza da adı qara siyahiyə düşdü, beşilliklərə nəğmə yazdı, amma sovet zindanında son anda iniltisini, sonuncu hıçqırığını bir kimsə eşitmədi.

*Ah, mən gündən-günə bu gözəlləşən*
*İşıqlı düunyadan necə əl çəkim?*

Bu misraları qələmə alanda ölümünə hələ beş il qaplırdı=. Hələ 29 yaşına çatmamışdı. Müşfiq qətlə yetirildi. Cismini Nargin adasına tulladılar. Yaşamaq-yaratmaq arzusu ilə çırpınan Müşfiq bəs neçin bu şeirini yazarkən həyəcan keçirmişdi? Bəlkə ölümünün…

*Qarşımda dalğalı dərin bir ümman,*
*Ümmanı sarsıdır bir acıf tufan.*
*Bəyaz köpükləri bir çiçək yapan,*
*Şeirdən, xülyadan necə əl çəkim?*

İyirminci illərin axırları-otuzuncu illərin əvvəllərində "proletar mədəniyyəti" təbliğçiləri qədim incəsənət əsərlərinə, milli musiqi alətlərinə qarşı kompaniyaya başlamışdılar. Məsələn, tənqidçi-ədəbiyyatşünas, Maarif komissarı Mustafa Quliyev bir məqaləsində yazmışdı ki: "Bu aləti -tarı müdafiə etmək külüncdür. Avropa musiqisi əvəzinə tar dərnəkləri təşkil etmək və türk musiqisi inkişafında tara əhəmiyyət verərək, onunla hesablaşmaq lazım deyildir. Tar öz-özlüyündə həyat səhnəsindən çıxacaqdır". Onun bu fikrini alqışlayanlar da oldu. O zamanbu qərarın əleyhinə ilk çıxış eləyən isə Müşfiq oldu.

*Oxu, tar, oxu, tar,*
*Səsindən ən lətif şeirlər dinləyim.*
*Nəğməni su kimi alışan ruhuma çiləyim.*
*Oxu, tar!*
*Səni kim unudar?*
*Ey geniş kütlənin acısı, şərbəti-*
*Alovlu sənəti!*



İllər keçəcək, Müşfiqin müasiri olan Mirzə İbrahimov "Tar" şeirinin doğurduğu əks-səda haqqında yazacaq: "Tarı ilk dəfə Müşfiq Maarif evində neçsə yüz adamın içində oxudu. Biz hamımız və bütün zal qeyri-adi, şiddətli bir dalğanın qanqadlarında uçur kimi vəcdə gəlib Müşfiqi alqışlavdıq".Burada qeyd etməyi lazım bilirəm ki, Müşfiq klassik poeziyamızın alovlu təbdiğatçısı idi. Onun müasiri Mir Mehdi Seyidzadə bir xatirəsində yazır ki, Müşfiq bir gün evimdə qonaq qaldı. Səhərə qədər Füzulidən şeirlər dedi, özüu də necə…

Müşfiq dünya poeziyasına bələd olan şairlərdən idi. O, Azərbaycan sonetinin ən gözəl nümunələçrini yaratdıv.Onun şeirləri sənətkarlıq baxımından novatorluq keyfiyyətlərinə malik idi. (Bu haqda ədəbiyyatşünas S.Quliyevin Müşfiqə həsr etdiyi monoqrafiyasında xeyli fikirləçrlə qşarşılaşırıq) Cəsarətlə demək olar ki, Müşfiq şeiri həm öz dövründə, həm də indi-yüksək sənət səviyyəsindədir. Onun şeirləri musiqiylə nəfəs alırdı.

*Bu gecə nə qədər xoş gecədir,*
*Bir qara qız kimi tellicədir.*
*Yer işıq, göy işıq,*
*Hər tərəf yaraşıq.*
*Sevgilim, dayanma, sahilə gəl*
*Seyr elə gəl.*

Müşfiq Azərbaycanq şairləri içərisində ən çox yaddaşı, hafizəsi olan şairdit. Onun həyat yoldaşı Dilbər Axundzadə yazır ki, Müşfiq türk klassik və müasir şeirini, Azərbaycan şairlərinin şeirlərini əzbər bilirdi. Hətta yanında bir şeir oxuyanda,Ö Müşfiq o şeiri əzbər deyirdi.Müşfiq Cavidlə, Əhməd Cavadla dost idi, onlardan öyrənirdi. Cavid Müşfiqi çox sevirdi.

Müşfiqş haqqında düşünəndə bir də otuzuncu illərin o təlatümlü, o mürəkkəb, qatmaqarışıq, sinfi ideologiyanın hakim sürdüyü çağların Müşfiqi durur gözlərimiz qarşısında. Müşfiq əslində, Azərbaycan sovet poeziyasının banilərindən biri, öz şeir və poemalarında Şura inqilabını, bu inqilabdan doğan sevinci, əməkçi insanların həyatını, gələcəyə inamını əks etdirən şair idi, amma niyə o repressiyanın qurbanı oldu?

Niyə onun şair dostlarından biri, öz istedadına görə Müşfiqdən qat-qat zəif olan Məmməd Rahim "Ədəbiyyat qəzeti"ndə (21 avqust, 1937) "Kontrrevolusionist, kontroabançı" məqaləsi ilə çıxış etməli və Müşfiqi quruluşa zidd şair hesab etməliydi? Və illər keçəndən, Müşfiq bəraət alandan sonra "Şairin əziz surəçti"№ məqaləsini yazıb, guya günahını yumalıydı? Əslində, Müşfiqə qarşı bu ədalətsizlik lotuzuncu illərin əvvəllərində başlamışdı. Əlbəttə, Müşfiqin həyetirilməsinin səbəbləri məlumdur.Onun həbs edilməsinin sonra "troyka"nın qərarı ilə qətlə yetirilməsinin səbəbləri məlumdur. Bu barədə onun 1 nömrəli tədqiqatçısı və təbliğatçısı, Müşfiq əsərlərinin nəşrini oxuculara mükəmməçl çatdıran Gülhüseyn Hüseynoğlunun o məqalələrində kifayət qədər faktlarla rastlaşa bilərsiniz.

Təbii ki, Müşfiq unudulmadı.Xalq şairi, Müşfiqin dostu Rəsul Rza "Qızılgül olmayaydı" poemasında Müşfiqin unudulmaz obrazını yaratdı. Müşfiqanə şeirlər yarandı, onun yaradıcılığı haqqında məqalələr, tədqiqat əsərləri (burada G.Hüseynoğlu ilə yanaşı ədəbiyyatşünas Safurə Quliyevanın da zəhmətini unutmaq olmaz) yazıldı.

**Sözümü M.Müşfiqin "Əbədiyyət nəğməsi" şeirindən onun gələcəyə, poeziyaya, sənətə böyük məhəbbətini əks etdirən bu misralarla bitirmək istəyirəm.**

*Bu dumanlı dağın başı mən olsam,*
*Dibinin ağlıyan daşı mən olsam.*
*Hal bilən, dil bilən qara gözlərin*
*Qələmim deyir ki, qaşı mən olsam,*
*Ellərin ürəyit kövrəkləşəndə,*
*Dolu gözlərinin yaşı mən olsam,*
*Bəzi adamları bilməyim deyə,*
*Hisslərim korşalıb, naşı mən olsam,*
*Bir sərxoş ölümün əlindən düşüb*
*Nə zaman qırılan kaşı mən olsam,*
*Şair yeni-yenqi sözlər bulacaq*
*Kainat olduqca şeir olacaq".*

# Öldü deməyin, dostlar, Akif yatmağa getdi...

**İndi Qazax deyəndə yada nələrin və kimlərin düşdüyündən uzun-uzadı danışmaq olar, amma mən ömrü qısa, şeiri böyük Akif Səməddən danışmaq istəyirəm.**

Adını unutduğum bir yazıçı təxminən belə bir şey demişdi ki, şair hara, uzun ömürlü olmaq hara?! Bəlkə bu səbəbdəndir 44 il ömür sürməsi...

Akif Səməd ilk növbədə mənim aşıq şeirinə-qoşmaya, gəraylıya, təcnisə, bir sözlə, klassik şeirə olan fikirlərimi dəyişən şairlərdəndir. Bilmirəm pafoslu çıxar ya yox, amma mən Qazağı Səməd Vurğunla yox, Akif Səmədlə, Bəxtiyar Hidayətlə, Məmməd Aslanla, Vafiq, Yusif Səmədoğlanları ilə sevirəm daha çox. Baxmayaraq ki, "Pasport" Səməd Vurğundur.

Akif Səmədin ölümü haqqında gedən söz-söhbətlərin fonunda gözümə bu şeiri dayanır;

*Yarpaqlarım yavaş-yavaş tökülür,*
*Öz-özümdən aralanıb gedirəm.*
*Bir bostanam, tağlarımı çor vurur,*
*Payızımdı, uralanıb gedirəm.*

*Sona qalxmaz buz bağlamış gölümdən,*
*Qız asılmaz bəyaz çalan telimdən,*
*Aman fələk, sənin qannı əlindən,*
*Dərd sinəmdə sıralanıb gedirəm.*

*Ölüm odu, oğlun-qızın olmaya,*
*Səndən sonra, sazın-sözün qalmaya,*
*Dünya silə, izin-tozun qalmaya,*
*Ölmürəm ha, yaralanıb gedirəm.*

Düzü, Akif Səmədi ilk dəfə ədəbi obrazı ilə tanımışam. Daha doğrusu, ədəbi məclislərdə gedən söhbətlərdən, ömrü uzun yoldaşlarının xatirələrindən. O söhbətləri, lətifələri, bu baməzə adamı tanıdıqca düşünürsən ki, şeir yazmasaydı da ona şair demək olardı. Ən azından obrazı, kolarotinə görə.

Şair, ümumilikdə insan odur ki, gedəsən bu dünyadan, arxanca şeirin, sözün-söhbətin, xatirən qala bəs qədər. Həmişə yaxşı, həmişəyaşar xatırlanasan, ləyaqətlə anılasan.

Çoxlarımızın görə bilmədiyi Akif Səməd haqqında da eşitdiyim bu söhbətlər də onu bir başqa sevdirir.

Şeirlər isə ayrı məsələ. Ona söhbət ola bilməz...

"Atan deyil, anan deyil, dünya sənin nəyindi ki?" -deyən Akif Səməd üçün dünya söz idi, sözdən ibarət idi.

*Böyükdü, sirri-xudadı,*
*Azadlıqdı, qəfəsdi Söz.*
*Evdi, saraydı, odadı,*
*canda candı, nəfəsdi söz.*

*Sən, mən, o - bizik əsgəri,*
*Bir sözdən min bir səs gəlir*
*Görür, görünür, göstərir,*
*Nə şəkildi, nə səsdi Söz.*

*Gah yatırdar, gah oyadar,*
*Şeytandı, küfrdü, ayadır,*
*Göylərdən enib qayıdar,*
*Yerdə haqqa əvəzdi Söz.*

Akif Səmədin ən sıradan, sadə şeirlərində belə olan şirinlik, canayaxınlıq yəqin ki, oxuyan hər kəsə eyni cür enerji ötürür.

*Sən kövrəlmə, ay atam,*
*Dözümə yol gedirəm.*
*Nə vaxtdı itib-batan*
*İzimə yol gedirəm.*
*Yanmaq yaraşır ömrə,*
*Qulam Allahdan əmrə.*
*Nəsimi, Yunis İmrə*
*Sözümə yol gedirəm.*
*Daşda bitən kolmuşam,*
*Öz-özümü yolmuşam,*
*Özümdən yol almışam,*
*Özümə yol gedirəm.*

Akif Səmədin həyatda olduğu kimi şeirlərində də ironiyası, özünə şairyanə tənqidi, həm də onların hansı ağrı ilə, hansı kədərlə, hansı hisslərlə yazıldığı onun bir daha insan və şair kimi böyüklüyünə nişanədir. İndi onun Qarabağ haqqında yazdığı şeirlərə baxanda içimdən "kaş sağ olaydı, bu şeirinin aktuallığının necə itdiyinə özü şahid olaydı" deyirəm;

*Zaman ötür, sular axır,*
*Qazanımız köhnə paxır,*
*Düşmən dağa bayraq taxır,*
*Düzdə hələ şeir yazırıq.*

*Susuz yanırıq, hər yan su*
*Dağ çayı, bulaq, uçansu,*
*Torpağı itirib, hansı*
*Üzlə hələ şeir yazırıq.*

*Adam olmaq qara baxtım,*
*Qara baxtım, qızıl taxtım,*
*Qəbir yerim - Qarabağım,*
*Gözlə, hələ şeir yazırıq.*

O cümlədən Şuşa şeiri ilə də. İndi bu şeirlərə gülümsəmək olar ancaq. Gözəl, xatirəli, xəfif təbəssümlə.

*Bu halal yolnan, yoldaşnan*
*Şuşaya gedə bilmirəm.*
*Bir belə qohum-qardaşnan*
*Şuşaya gedə bilmirəm.*

*Qazağıq, özbəyik-Türkük*
*Tarixdə çoxuna görkük*
*Həsrətdə, dözümdə bərkik*
*Şuşaya gedə bilmirəm.*

*Uduzduq nədə, bilirəm,*
*Bilirəm, dədə, bilirəm.*
*Evimə gedə bilirəm,*
*Şuşaya gedə bilmirəm.*



*Şuşasız evim evdimi?*
*Dözən mənəmmi, devdimi?*
*Kimə söyləyim dərdimi?*
*Şuşaya gedə bilmirəm.*

*Şuşada güllər gülürmü?*
*Dağına duman gəlirmi?*
*Xudu müəllim bilirmi?*
*Şuşaya gedə bilmirəm.*

*Türk olmaq günahmı oldu?*
*Günahkar segahmı oldu?*
*Təbrizdən uzaqmı oldu?-*
*Şuşaya gedə bilmirəm.*

Və yaxud;

*Əmindi, dayındı, bizik,*
*Qulaqları sağır, bala.*
*Hər səhər evdən çıxanda,*
*Şuşa deyib bağır, bala!*

*Biz uduzduq hansı zorda?*
*Ölsək, qoyma yataq gorda.*
*Eşitdin televizorda? -*
*Şuşaya da yağır, bala.*

*Tapşırma bizə qoşunu,*
*Aldırma bizə huşunu.*
*Qoş Təbrizdən tay-tuşunu,*
*Bir hay elə, çağır, bala!*

Sözdən çox nə var Akif Səməddə?

Şeir elə bir şeydir ki, bəzən yazılan misranın ağırlığını, enerjisini, daha dəqiq, şairin talehini həll edəcəyini duya bilmirsən. Yanlız çox sonra, şair o şeirləri özü deyə bilməyəndə görürsən. Görürsən ki, sən demə, həqiqətən də burda özünü yazırmış, burda deyirmiş. Lap o kimsə öləndə deyirlər e, filankəs bilirdi, hiss eləmişdi, demişdi...

*Atilayım, Çilənayım,*
*Sorsalar atamız hanı?*
*Çaşma, ləngimə, təngimə,*
*Göstər beş-altı qoşmamı.*

*Dünyaya sözü olmadı,*
*Söylə ki, ürəkdən getdi.*
*Heç nədə gözü olmadı,*
*Gəlmişdi, ürəknən getdi.*

Ürəkdən, bu dünyadan ürəklə, ürək dolu sözlə gedən Akif Səməd....

Yazının bu yerinə qədər bu misranı yazmaq, bu məsələdən, ümumiyyətlə, bu barədə heç söz demək istəmirdim, amma talehini yazan, hər şeyi az qala hər şeirində deyən adamı həm də bu cür xatırlamaq lazımdır. Təfərrüata varmadan...

*"Məni dostlarım öldürdü,*
*Düşmən dirildər, inşallah"*

Nə bilim, vallah. Şeir, Akif Səməd şeiri, otur, səhərədək yaz, denən, xoşhallan, şirinlən.

*Eşq mərifətdən anrıdı,*
*Aşiqə yiyə tanrıdı.*
*Mərəkə hələ sonradı,*
*Ölüm ömrün sonu deyil -*

şeirini oxuyuram, sonlandırmaq istəyirəm, sonra qarşıma daha bir şeir çıxır, deyirəm, ilahi, adam özünü nə qədər yazar, həm də bu cür dəqiq, bu cür gözəl?

- Ölüm həqiqətən də ömrün sonu deyilmiş. Şeir, söz bilən adamların qəlbində bir saz havası, bir nəğmə kimi yaşayırsan. Ölümünə dəyəcək bir şəkildə.

Ona görə biz Akif Səmədə öldü demirik. Şair nə vaxtdan ölür? Hamı yaxşı bilir ki, Akif Səməd yatmağa getdi....

*Görsəniz yoxam, deyin*
*Ay tək batmağa getdi.*
*Öldü deməyin, dostlar*
*Akif yatmağa getdi...*

**Orxan Saffari**

# Ömrün son anları

***Bilmirəm, hardan və necə gəldi, bir də gördüm ki,ölüm başımın düz üstündədir. Başının işarəsi ilə necəsən deyib, hazır olub-olmadığımı soruşdu.***

***"Neçə gün idi ki, heç nə yeməmişdim. Taqətim kəsilmişdi. Dilim batmış, söz tutmurdu. Gözlərimə qaranlıq çökür, huşum tez-tez gedirdi. Hərdən huşum başıma gələndə, fikirləşirdim ki, ölüm çağrılmamış gəlsə də, nə yaxşı ki, təmənnasız olur. Bir şey istəyib almadan işini yerinə yetirir. Və bu zaman görəsən bizi dünyadan aparmaqla ölümün məqsədi nədir, qazancı nə olur?! Bax bunları bilmirəm. Bəlkə də ölüm bunun fərqinə varmır. Ölümün bir də nə vecinə, qarşısındaki kim olur olsun. Fərqi yoxdur. Təki dünya seyrəlsin, təki ölüm olsun.***

***...Ölümü nuru getmiş, zəifləmiş gözlərimlə xeyli süzdüm. Ona deməyə çox sözüm olsa da fikrimi cəmləşdirib, nəsə məntiqli bir şey deməyə cəhd göstərsəm də alınmadı. Artıq gözlərim axır, şüurum beynimin dərinliyindən süzülür, əzəli yerini tərk edirdi. Keçirdiyim hiss və ağrıları kiməsə söyləmək artıq lüzumsuz idi. Son gəlmişdi. Getmək vaxtı yetişmişdi. Həyatda bir çox şeyi istəyəndə təxirə salsan da, ölümü aldatmaq, ya da ləngitmək, təxirə salmaq mümkün olmur. Çünkü buna sadəcə olaraq, gücün çatmır. Ölüm səndən güclü olur...***

***Bir də gördüm, gözlərim alacalanır, onlara soyuq duman çökür. Və birdən sanki başıma qəfil ağır və küt bir zərbə endirdilər. Çabalamaq, nəsə etmək istədim. Ancaq necə?! Artıq bu mümkün deyildi. Təbiət bizə bəxş etdiklərini son damlasına qədər geri almayınca rahat olmur axı. Nitqi, gücü, qüvvəti, inamı, ümidi...***

***...Məni ən çox yandıran son anda ətrafdakiların xaoslu hərəkətləri oldu. Birdən kim isə tükürpəşdirici səslə ölür, kişi əməlli-başlı ölür, gəlin xalçanı çöndərək, başı qibləyə tərəf olsun. K-nı çağırın, qoy quran oxusun, kişi keçinir (Məni bəlkə də bu sözlər öldürdü). Sanki mən artıq canlı insan deyildim. Bunları eşitmək nə qədər ağır, dözülməz olsa da, cavab verməyə, söz deməyə gücüm çatmadı. Gözlərimi heç azacıq olsa belə, aça bilmədim. Başım üzərində oxunanları sona qədər anlamasam da, dinləmək məcburiyyətində idim.***

***Heç olmasa gözlərimi özüm sığamaq istədim. Amma sən demə, ölüm o qədər ani olur ki, onu görmək, qılığına girmək mümkün olmur. Gözlərini sığamağa belə vaxt tapa bilmirsən .. Beləcə öldüm. Bir də onu başa düşdüm ki, son nəfəsim getdi. Ağzımdan quruca,odlu nəfəs çıxdı. Və məndən xatirə kimi yaddaşlarda qalacaq ruh göylərə sarı uçdu. Anladım ki, ömrün boyu yığdığın, yaşadığın ad-san, mənəviyyat, şərəf və ləyaqətli ruh özü ilə aparır. Qəbristanlıq yaxın olduğundan qonum-qonşu, yaxınlar tabutumu əllərində, başları üstə apardılar. Fürsətçil V. özünü gözə soxur, əlini dəyişmir, yerini başqasına vermirdi. Onun canfəşanlığı mənə qəribə gəlirdi. Axı sağlığımda biz onunla yaxın olmamışıq. Heç bir dəfə də olsun, doyunca söhbət də etməmişdik. Arada V.-nin ayağı səyridi, az qaldı yıxılsın. Düzü çox qorxdum. Dedim tabutun altında qalanlar qulağım eşidə-eşidə məni söyərlər. Amma V. müvazinətini düzəldib, heç bir şey olmamış kimi başını tam yuxarıya qaldırdı. İçkinin iyi məni vuranda onun canfəşanlığını anladım. Amma kimə və necə deyəsən?!***

***...Qəbristanlıqda başım üzərində mikrofonsuz danışan natiqlərin çıxışları məni çox yordu. Danışdıqlarının çoxunun mənimlə heç bir əlaqəsi yox idi. Axır ki, yorulub getdilər. Başım üzərinə bir də diqqət yetirdim. Başdaşı yox idi. Dörd tərəfi torpaq olana daha ağır başdaşı nə lazım?! Düşündüm ki, yəqin başdaşını sonra qoyacaqlar. Amma elə bu zaman vəsiyyətim yadıma düşdü. O qədər keşməkeşli, zülümlə dolu, ağır həyat sürmüşdüm ki, öləndə vəsiyyət etdim:***

***Başdaşı qoymayın***
***Məzarım üstə.***
***Qorxuram,***
***öləndən sonra da***
***Daş düşə***
***başım üstə...***

***Adil MİSİRLİ***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**№ 57 (2238) 3 iyun 2021-ci il**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Yeni və şərəfli tarixin başlanğıcı

**44 günlük Böyük Vətən Müharibəsi zəfərlə başa çatdıqdan sonra dünya ictimaiyyətinə daha bir mesaj verildi. Bu mesaj əslində həqiqətin, gerçəyin rəsmiləşdirilməsi idi. Yəni Azərbaycan dövləti, başda Ali Baş Komandan olmaqla hər kəsə bəyan etdi ki, biz BMT-yə müstəqil dövlət kimi qəbul olunarkən məlum dövlət sərhədlərimizi bərpa etdik. Azərbaycan öz ərazi bütövlüyünü təmin etməklə Dağlıq Qarabağ problemini də təkbaşına çözdü.**

Bəli, bu bəlli həqiqəti dünyaya rəsmi şəkildə bildirəndən sonra inanmaq istəyirdik ki, ermənipərəst güclər, onların havadarları, xüsusilə Ermənistanın özü artıq tarix dərsindən nəticə çıxaracaq və yenidən qonşuluq şəraitində yaşamaq, Azərbaycanla iqtisadi, siyasi əlaqələr qurmaq yollarını axtaracaq. Təəssüf ki, bu, belə olmadı. Ermənistanla ona havadarlıq edənlər, xüsusilə Fransa, Kanada və digər dövlətlər sanki problemin çözümündən narahat olduqlarını göstərmək üçün yenidən ATƏT-in Minski qrupunun, danışıqlar prosesinin, Ermənistanın dırnaqarası hüquqlarını dilə gətirməyə başladılar. Bu dövlətlərin həm rəhbərliyi, həm də onların açıq bəyanatları birmənalı şəkildə Ermənistanı müdafiə etməyə, onların işğalına haqq qazandırmağa, hətta onların təbirincə desək, "Guya Ermənistanın işğala məruz qaldığı və bu işğala Azərbaycanın son qoyması" tələb etməyə başladılar. Bütün bu proseslər də onu göstərdi ki, regionda marağı olan güclər Ermənistandan bir alət kimi istifadə etməklə problemin ömrünü uzatmaq, onu müəyyən mənada dondurmaq və nəticədə Azərbaycan tərəfinə müxtəlif vasitələrlə təzyiq edib bölgədə ikinci bir erməni dövlətini yaratmaq məqsədinə nail olmaq istəklərini büruzə verdilər. Bu görünən və həm də siyasətin alt qatında gizlənən məqamlar da özü-özlüyündə Azərbaycan prezidentinə, onun komandasına, bütünlüklə məlum olduğundan cənab İlham Əliyev çox qəti bir şəkildə bəyan etdi ki, "Artıq Dağlıq Qarabağ problemi yoxdur, bu məsələ bitib və biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Ona görə də heç kimin bizə təzyiq göstərmək ixtiyarı və hüququ yoxdur. Biz BMT-nin, xüsusilə Minsk qrupunun həll etməli olduğu problemi özümüz tam şəkildə həll etmişik".

Bu gün təkcə Cənubi Qafqazda deyil, bütövlükdə dünyada söz sahibi olan Azərbaycan dövləti özünün 44 günlük müharibəsi ilə sübut etdi ki, həm böyük iradəyə, həm böyük gücə, həm də mükəmməl daxili və xarici siyasətə malikdir. Bu ölkə ulu öndərimiz Heydər Əliyevin işləyib hazırladığı böyük və müdrik siyasətin gerçəkləşməsi üçün öz ali baş komandanının, prezidentin ətrafında yumruq kimi birləşib və həmin dəmir yumruq da bütün problemləri çözmək qüdrətinə malikdir. Heç də təsadüfi deyil ki, Azərbaycan prezidenti bugünlərdə Ağdamda təməlqoyma mərasimlərində iştirak edərkən bütün dünyaya səsləndi. Həmin çıxışın ölkə və dünya mediyasında tirajlanması həm göstərdi və sübut etdi ki, bu gün erməni təxribatlarının bu və ya digər formada davam etməsinə baxmayaraq Azərbaycan artıq birmənalı şəkildə işğaldan azad etdiyi torpaqlarda quruculuq işlərinə başlayır. Yəni bizim məqsədimiz düşmənin xaraba qoyduğu, yerləyeksan etdiyi Ağdamda, Füzulidə, Cəbrayılda, eləcə də digər ərazilərimizdə yeni infrastruktur yaratmaq, insanlarımızı öz dədə-baba torpaqlarına qaytarmaq və bununla da paralel olaraq bizimlə işləmək istəyən bütün dövlətlərə, şirkətlərə, yəni bizə əl uzadanlara "yaşıl işıq" yandırmaq iqtidarındayıq.



Elə bu məqsədlə də Türkiyənin, İtaliyanın, Belarusiyanın, eləcə də artıq müraciətlərə daxil olan digər dövlətlərin işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına, yeni ağıllı kənd və şəhərlərin salınmasına cəlb olunması istiqamətində nümunələr özünü göstərir. İstər Füzuli şəhərində hava limanının tikilməsi, Şuşaya Zəfər yolunun çəkilişi, Zəngilanda, Qubadlıda, Ağdamda, Türkiyənin kənd təsərrüfatı, nəqliyyat, mədəniyyət, turzim nazirlikləri ilə əlbir işləmək, İtaliya şirkətlərinin Şuşada və digər ərazilərimzdə işə başlaması Azərbaycanın sülhpərvər niyyətinin bariz göstəricisidir.

Bax, belə bir şəraitdə ermənilərin təxribatlara əl atması gizli yollarla sərhədimizi keçib Kəlbəcərdə, Laçında və digər ərazilərdə yenidən minalar basdırması, terror aktlarına cəhd göstərməsi düşmənin rəzilliyi ilə yanaşı, həm də onun işğalçı, faşist niyyətinin iç üzünü açıb göstərir. Bu, eyni zamanda üçtərəfli bəyanatın təmsilçilərindən olan Rusiyaya da sayqısızlığın ifadə olunmasıdır.

Yəni, Azərbaycan, Ermənistan və Rusiya rəhbərliyinin imzaladığı 10 noyabr bəyanatına qarşı atılan bu addımlar göstərir ki, Ermənistan bir dövlət kimi idarə olunmadığı kimi, həm də özü özünü yeni fəlakətlərə çəkib aparır. Azərbaycan isə quruculuqla, abadlıqla məşğul olmaqla yanaşı, həm də bölgədə yeni infrastrukturun yaranmasına səy göstərir. Təbii ki, bu da Ermənistan üçün müəyyən şanslar verir. Ölkə prezidenti cənab İlham Əliyevin dediyi kimi, "Azərbaycanda həyata keçirilən böyük layihələr, eləcə də Zəngəzur dəhlizinin açılması Ermənistan üçün də müəyyən şanslar yaradır. Əgər qonşu dövlət öz siyasətində köklü dəyişiklik edərsə, silahlanmaya yenidən işğala özünü sərf etməzsə, onda müəyyən zamandan sonra o da regionda gerçəkləşən böyük layihələrin iştirakçıları çevrilə bilər, bu gün kənarda qaldığı layihələrə qatıla bilər. Təəssüf ki, biz hələlik Ermənistan tərəfindən belə bir niyyətin əlamətlərini görmürük. Bütün bunlara baxmayaraq biz öz yolumuzla gedir və gedəcəyik".

Dünyada baş verən proseslərin fonunda görünən odur ki, müəyyən qüvvələr Cənubi Qafqazda qaynar nöqtələrin qalması üçün aşkar və gizli fəaliyyət göstərməkdədirlər. Hətta bu məqsədlə kifayət qədər vəsait də xərcləyib müharibə tərəfdarlarına silah-sürsat hədiyyə edirlər. Amma bu güclərin ermənilərin əli ilə nələr etmələrindən asılı olmayaraq məlum olan bir gerçəklik var. O da Azərbaycan prezidentinin iradəsi, Azərbaycan ordusunun gücü, xalqa hakimiyyətin birliyi və bir də müdrik xarici siyasətdir. Bax, bu qeyd etdiklərimizin ümumi məntiqi nəticəsi göstərir ki, bu gün pandemiyanın artıq idarə olunduğu Azərbaycanda yeganə məqsəd böyük qayıdışın tələblərini yerinə yetirmək, işğaldan azad edilmiş ərazilərimizin baş planını reallaşdırmaqdır. Həmin iqtisadi məsələlərlə yanaşı, hərbi qüdrətimizi də artırmaq, təkmilləşdirmək, ordumuzu döyüş və qələbə ruhunda saxlamaq üçün vacib olan qərarları, qəbul edir, addımları atmaq, onların təlimlərini döyüş şəraitindəki bir səviyyədə gerçəkləşdirmək və nəhayət, dəmir yumruğu sıxılı saxlamaq!

Bax, budur bugünümüzün, sabahımızın qarşımıza qoyduğu məqsəd. Bizi də bu məqsəddən heç kim çəkindirə bilməz. Əgər xatırlayırsınızsa, Şuşada keçirilən Xarı Bülbül festivalının açılışında Azərbaycan prezidenti düşmənə və onun havadarlarına bildirdi ki, "heç kim bizimlə güc dilində danışa bilməz, heç kim bizə təzyiq edə bilməz, biz öz torpaqlarımızı işğaldan azad etmişik, kimsə başqa bir niyyətə düşərsə, o yerində və vaxtında öz cavabını alacaqdır. Dəmir yumruq onların başına enəcəkdir".

**Zaman ən böyük hakimdlir. Biz 44 günlük müharibədə göstərdik ki, şəhidlərimizin qanı yerdə qalmadı, torpaqlarımız işğaldan azad edildi və ölkəmizdə böyük qayıdışa başlanıldı. Bu Azərbaycanın bir dövlət olaraq yeni tarixinin başlanğıcıdır. Həmin tarixin müəllifi də Azərbaycan prezidentidir. Biz də bu şərəfli tarixi gələcəyə şərəflə daşıyacayıq.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Mir Cəlalın satirik hekayələrində gülüş, bu gülüşü doğuran reallıqlar...

*I məqalə*

**Ötən əsrin 20-ci illərində Azərbaycanda Sovet hakimiyyəti quruldu. Yeni quruluş yeni dövrün yeni ab-havasını yaratdı, Azərbaycan ədəbiyyatı yeni təkamül mərhələsinə qədəm qoydu, necə deyərlər yeni dövr öz yeni yazıçılarını ərsəyə gətirdi. Qədim Gəncəmizdə - dahi Nizami yurdunda "Qızıl qələmlər" cəmiyyətinin filialı fəaliyyətə başladı. "Qızıl Gəncə" jurnalı Gəncədə qələm çalan gəncləri gələcəyin görkəmli şəxsiyyətlərini öz ətrafında cəmləşdirdi. Uşaqlıq illərindən bu şəhərə könül bağlayan, burda yaşayıb təhsil alan gənc Mir Cəlal da S.Vurğun, H.Araslı, N.Rəfibəyli, Əli Məzhun, Əli Razi, M.Rzaquluzadə kimi yaradıcı gənclərin cərgəsinə qoşuldu, ilk qələm təcrübələri ilə oxucu qarşısına çıxdı. Gəncə mühiti gənc Mir Cəlalın yazıçı kimi yetişməsində, ədəbi dilinin formalaşmasında mühüm rol oynadı. İlk dəfə yaradıcılığa şeirlə başlayan Mir Cəlal sonra ədəbi camedə populyarlıq qazanan hekayələri ilə sevildi, təqdir olundu. Onun hekayələri dövrün ictimai-siyasi tələblərinə kor-koranə baş əyməyən, həyat həqiqətlərini bu tələblərdən ucada tutan bir yazıçının gəlişini xəbər verirdi.**

### *Fəhlə, kəndli hökuməti*

yeni dövrün tələbi olan mövzuları önə çəkir, "müsbət qəhrəman" axtarışında bir növ yarışa çıxan gənc ədəbi qüvvələrə meydan verirdi. Belədə çox zaman quru, sxolastik ədəbi qəhrəmanlar "yaradılır", yazıçılar mövzunun aktuallığı arxasında gizlənib bədiilik, məzmun rəngarəngliyi, sənətkarlıq kimi fundamental dəyərləri unudurdular. Mir Cəlal hələ o zamanlar diqqəti bu məsələyə yönəldərək yazırdı:

"Bir çox əsərlərimizdə təsvir olunan adamlar real, təbii çıxmır. Nə üçün? Ona görə ki, yazıçı onları maraqlı, mürəkkəb həyatı olan canlı adamlar kimi yox, ancaq bir peşə sahibi kimi; sədr, katib, traktorçu, buruq ustası, müəllim və sair kimi təsvir edir. Meşin pencəyi əynindən çıxaran raykom katibi öz obrazını itirmiş olur."

***Mir Cəlalın yazıçı xoşbəxtliyi onda idi ki, o həm də tədqiqatçı idi, ədəbiyyatın haradan gəlib hara gedəcəyini bilirdi, onun incəliklərinə bələdliyi ilə seçilirdi. O, həm də müəllim kimi bu incəlikləri tədris edir, öyrədir, öyrədə-öyrədə, öyrənə-öyrənə yazıb yaradırdı. O, ədəbiyyatımızın canlı klassikləri Cəlil Məmmədquluzadədən, Əbdürrəhim bəy Haqverdiyevdən sənət özgürlüyü əxz eləmişdi. Hekayə janrının mükəmməl nümunələrini yaradan ədib bununla öz sənət müəllimlərinə məhəbbətini, sədaqətini ifadə etməklə yanaşı, ədəbiyyatımızda bu janrın populyarlığını təmin edir, az sözlə çox mənalar ifadə edən bu sənət növünün inkişafının təlimatçısına çevrilirdi. Bunu xüsusi qeyd etmək lazımdır ki, Mir Cəlalın hekayələrində o ədiblərin az-çox təsiri olsa da, ümumən Mir Cəlal yaradıcılığı tam orijinal, bənzərsiz bir yaradıcılıqdır.***

Mir Cəlalın ədəbi dili xalqın gen yaddaşından bulaq suyu kimi axıb gələn dildir. Onun dili oxucuları ahənruba təsiri ilə özünə çəkir, hər hansı əsərini oxumağa başlayanda, mütləq axıra çıxmağa tələsirsən. Təsvirlərin həyatiliyi, hadisələrin reallığı, obrazların inandırıcılığı səni çəkib aparır, yazıçının qarşısına qoyduğu ideyadan da, əsərin mükəmməl sujet xəttindən də, personajların təbii davranışından da zövq alırsan. Deyim ki, Mir Cəlal sənətkarlığının məziyyətləri, özünəməxsusluğu birinci növbədə onun hekayələrində, xüsusən də, satirik hekayələrində araşdırılmalı, öyrənilməlidir. Biz bu məqaləmizdə görkəmli ədibin qələmə aldığı satirik hekayələrə üz tutacaq, onun təhnizlə, töhmətlə şaxələnən, ironik gülüşünə, vurub şil-küt edən deyil, yumorla tərbiyə edən islahedici tənqidinə diqqət ayıracağıq.

### *Bu satirik hekayələr*

mövzu və mündəricə etibarı ilə reallıqları əks etdirən, həyatın, zamanın öz diktəsindən doğulan, hər gün gördüyü, tanıdığı, işləklərinə, fərqli həyat tərzinə bələd olduğu insanlardan bəhs edir. Bu mövzular yeni quruluşun mahiyyətindən, sosialist realizminin tələblərindən yaranan mövzulardır. Yuxarıdan gələn tapşırıq və tövsiyələri kor-koranə qəbul edən, işdə işgüzar səliqəsi ilə sənədləri sahmana salıb, rəhbərliyinin qayəsini ancaq bunda görən hamamlar trestinin başçısı Anketov da ("Anket Anketov"), bütün həyatının mənasını iclasda, protokolda, məruzədə və qərarda tapan İclas Qurusu da ("İclas qurusu"), bir-birinin bostanından, bağından oğurluq eləyən doğma qardaşlar Durmuş və Kərbəlayi Tapdıq da ("Bostan oğrusu"), deklamasiya deyədeyə gecələr qonum-qonşunu yuxudan eləyən, ictimai asayişi dəfələrlə pozduğuna görə rayona, kəndə işləməyə göndərilən Əntərzadə də ("Mərkəz adamı"), Bəhlul və anası da ("Təzə toyun nəzakət qaydaları") müəllifin gülüş hədəfinə çevrilir. Bu əsərlər ötən əsrin otuzuncu illərində yazılsa da, onun prototiplərinə XXI əsrin otuzuncu illərində də rast gəlmək mümkündür. Bu hekayələr indi də maraqla oxunur, bu günün bədiilik, sənətkarlıq məziyyətlərini özündə yaşadır. Var-dövlət hərisliyi, dargözlük, paxıllıq hisləri ilə od tutub yanan Kəmtərovlar ("Kəmtərovlar ailəsi") ər və arvad varlanmaq həvəsinə düşür, təzə ailə qursalar da, hər biri bir neçə yerdə işə düzəlir, evdə tapılmırlar, bir-birləri ilə ancaq yazışmalar vasitəsi ilə əlaqə saxlayırlar. Ə.Haqverdiyevə ünvanlanmış bu hekayə görün necə bədii priyomla, orijinal təsvir ilə başlayır:

*"-Yallah, yallah! Hardasan? Kefin necədir?*

*-Sən nə təhərsən?*

*-Göz dəyməsin, qıvraqlaşmısan, rəngin açılıb.*

*-Bir qıvraqlığım yoxdu, işdən baş açıram ki?*

*-Neyləyək bir görüşək?*

*-Bu vıxadnoy zanitəm, gələn vıxadnoy bəlkə...*

*-Sən evdə olacaqsan?*

*-Söz versən gözləyərəm.*

*-Gözlə, birtəhər eləyib gələrəm.*

Desəm onların ikisi də bir şəhərdə yaşayır, inanmayacaqsınız, desəm onlar bir evdə yaşayırlar heç inanmayacaqsınız. "Necə ola bilər ki, bir yerdə yaşayasan, bir-birindən xəbərsiz olasan?" - deyəcəksiniz. Desəm onlar ər-arvaddırlar, təəccüb edib deyəcəksiniz "Nə danışır bu!". Nəyə deyirsiniz and içim ki, bu belədir. Qulam Kəmtərovla arvadı Leylanın həyatı belədir."

Bu hekayənin qəhrəmanları gənc ər-arvad hadisələr davam etdikcə kinayəli, acı gülüşlə müşayiət olunur, oxucuların qınaq, töhmət obyektinə çevrilirlər. Kəmtərovlar hər biri üç-dörd yerdə işləməklə çoxlu pul qazanmaq istəyirlər, qonşuları Qıyıq Ələkbərin dəm-dəsgahı, varı, pulu onların yuxusunu ərşə çəkir. Qulam deyir: "Qıyıq Ələkbərin nəyi bizdən artıqdır? Özümüzü oda-közə vursaq da, gərək bir dəsgahlı ev-eşik düzəldək. Qonşular baxsın, yana-yana qalsın."

Bir evdə bir-birinin üzünü az-az görən bu ər-arvadın yazışmaları, məktubları daha maraqlı təsir bağışlayır:

"Leyla səhər işə gedəndə Qulamı şirin yuxuda qoyub gedirdi. Vacib sözü olanda balaca kağız yazıb stolun üstünə qoyurdu: "Qulam qayqanaq bişirəsi olsan, yumurta bufetin alt gözündədir, yağ da taxçada."

Qulamın məktublarından da ələ keçəni bunlardır: "Qadası mənim sayuz kitabçamı görməmisən, tapsan stolun üstünə qoy."

Mir Cəlal - müəllif Qulam və Leylanı hərtərəfli şəkildə, sadə, saya təhkiyə üsulu ilə öz oxucularına təqdim edir. Sanki o bu cütlüyün taleyinə acıyır, onların var-dövlət yığmaq arzusuna qurban gedən könül xoşluğunun, can rahatlığının izinə düşür, onları qınağa çəkir. Oxucularla sual-cavab tərzində polemikaya keçir.

"Bəs bu istəklilər niyə belə çətin görüşür, az-az görüşürlər? Mümkün deyil ki, arvad olasan, istəkli olasan, bir evdə yaşayasan həftə ilə görüşməyəsən? Ürəyinizə şübhə gələ bilər. "Bəlkə açıq deyilməsi ayıb olan səbəblər üçün görüşməyə ehtiyac duymurlar"

Yox, yox, heç də yox"

Təhkiyəçi - müəllif sual verir. Bəs bizim qəhrəmanların azarı nədir?

Sonra bu azarı doğuran səbəblərin lap ilk pilləsində enib, yavaş-yavaş üzüyuxarı qalxır, hekayənin kulminasiya nöqtəsinə yetişir.

Kəmtərovlar ailəsi - ər-arvad, Qulam-Leyla gecəli-gündüzlü rahatlıq bilmədən "çarpışır", hər biri üç yerdə işləyə-işləyə var-dövlət yığmağa, özlərinin dedikləri kimi qonşuları yandırıb-yaxan "ev" qurmağa başlayırlar. Lakin bu yöndə başlarını itirmiş bu cütlüklərin arzuları gözlərində qalır.

### *İşdə yuxusuzluq ucbatından*

səhvə yol verən Qulam əsas işindən qovulur. Onun başqa yerlərdə işləməsindən xəbər tutan müdiriyyət buna da xitam verir. Bəlli yerdə açar gizlədən ər-arvadın açarını oğurlayan sarıköynək qadın rahatca bu evə gəlib-gedir. Evdə yır-yığış edir, təmizlik işinə baxır. Beləliklə yavaş-yavaş sil-süpür etdiyi evin bütün qiymətli əşyalarını, ən çox da Leylanın cehizlərini "silib-süpürür."

***Bundan baş açmayan ər-arvad itən əşyaların yerini bir-birindən soruşa-soruşa vaxtı-vədəni, axtarışın əsil məqamını uduzmuş olurlar.***

***Beləliklə mündəricə - kulminasiya nöqtəsinə çatır.***

***Oxucu bu məğlub qəhrəmanların həyat tərzinə, tutduqları səhv yolda başlarına gələn bu olaylara acı gülüşlə, onların halına yana-yana gülür. Əsərin təlqin etdiyi qayə, məqsəd və ideya çox ibrətamizdir.***

Yazıçı təsvir edir, inandırıcı bədii vasitələrlə göstərir, güldürür, düşündürür, nəticə çıxarmağa, ibrət götürməyə səsləyir. Balaca bir hekayənin bu qədər təsir dairəsi, tərbiyə imkanları böyük Mir Cəlalın - görkəmli ədibin sənətkarlıq məziyyətlərini şərtləndirir, yazıçı obrazının bəlirlənməsinə, aşkarlanmasına xidmət edirdi. Var-dövlət hərisliyinə, əşyagirliyə nifrət oyadan yazıçının qələmə aldığı bu mövzu əslində bu gün də, hal-hazırkı yaşadığımız bu dövrdə də aktualdır, müasirdir. Sovet hakimiyyətinin ilk illərində



Kəmtərovlar ailəsi varlanmaq arzusunu daha çox işləməkdə, bir çox iş yerlərində çalışmaqda görürdülərsə, indi onu başqasının cibinə girməkdə, malını-mülkünü qəsb etməkdə, yüzlərin, minlərin haqqına girməkdə görürlər. İndiki "Kəmtərov"lar vacib gəlirli postlara yiyələnir, xalqın gözündən pərdə asır, kürsülərdə nitq deyə-deyə, yalançı vədlər verə-verə öz məqsədlərinə "nail" olurlar. Əslində sonadək nail ola bilmirlər. Onların bir çoxu müttəhim kürsüsündə əyləşdirilir, dar, havasız məhbəslərdə yediklərini qusmağa məcbur edilirlər. Elə ədibin bu hekayəni yazmaqda məqsədi də payından artıq yeməyə çalışanların ifşası idi.

***Yazıçının bir-birindən oğurlayan iki doğma qardaşın sərgüzəştlərindən bəhs edən "Bostan oğrusu" hekayəsi təsvir və mündəricə orijinallığı, dil və üslub fərdiliyi ilə seçilir.***

Hekayə o qədər şirin, o qədər poetik bir dillə nəql olunur ki, təsvirlərin təbiiliyinə, hadisələrin inandırıcılığına zərrə qədər şübhə yeri qalmır.

Gecənin zülmət qaranlıq bir aləmində qardaşı Kərbəlayi Tapdığın üzüm bağına oğurluğa gedən Durmuş kişinin "həyəcanı", "əndişəsi" oxucuya da sirayət edir. Oxucu bu qeyri-adi, maraqlı hadisənin axarına düşür. Səbirsiz-səbirsiz Durmuş kişinin gecə qaranlığında sərbəst addımlarını izləyir, fəhminə, səbrinə, oğurluq məharətinə, səriştəsinə "heyran" qalır.

"Durmuş dəyənin yanında barmaqları üstə yeriyib, xəyal kimi səssizcə Kərbəlayi Tapdığın yatağına yanaşdı. Kişi şirincə yuxuda xoruldayırdı. Əyilib Tapdığın üzünə diqqətlə baxdı. İnandı ki, "Yeddi gün, yeddi gecə" dev yuxusuna gedib. Kərbəlayının plov yeməkdən böyüyən ağzı elə geniş açılmışdı ki, oraya dolan yuxunu yeddi gün, yeddi gecədə ancaq həzm edə bilərdi."

***Bu cür gözəl təsvirlərin aludəçisi kimi, az qala bütöv hekayəni yazacağım məqaləyə köçürmək həvəsindən özümü zorla saxlayıram.***

Ancaq fikirlərimin əsasında yazıçının mövzu və təhkiyəyə uyğun ifadə vasitələri seçməsindən söhbət gedirsə, yeri gəldikcə onun öz təsvirlərinə üz tutmaq zərurəti yaranır:

"Kərbəlayi Tapdıq altı tənəkdən altı salxım üzüm dərə bilmirdi. Üzümləri gülünü tökər-tökməz, ala-qora vaxtında yoluşdurub aparırdılar. Kərbəlayi xəbər tutanadək bir salxım da qalmırdı. Arvad onu çox danlayırdı. Axırda özü də hirsləndi:

-Canım - dedi belə şey olmaz axı, görüm bu zəhrimara dadanan kimdir? Onun qarnını yırtmasam mən Kərbəlayi Tapdıq deyiləm. Oğlunu, nökərini də göndərməzdi. Üzümlər gül tökəndə iyun ayının axırlarında yorğan-döşəyini götürüb bağda, dəyədə yatardı. Niyə də yatmasın? Qoruya bilsə, tənəkdə bir pud üzümü var.

### *Qol-qanad açıb*

***isti torpaqlarda yatan tənəklər bulud kimi dolu salxımlar verir. Dolmalıq vaxtını ötən və baş qaldırıb tac kimi şax duran yarpaqlar, sanki günəşin almaz zərrələrini, sabahın ilhamlı təranələrini sorub salxımlara və şəffaf gilələrə doldurur. Yarpaqlar yaşıl ətəkləri ilə salxımları örtüb bəsləyir. Salxımlar isə pərvazlanmış quş kimi, yuvasına sığınıb kənara boylanır, quşları çağırır və bəlkə də yoldan ötənlərin zavalına gəlirdi"***

Beləliklə, təsvirlərdən doğan lirik-romantik ovqatla, hadisənin nəticəsi - üzümün oğurlanması, özü də doğma qardaş tərəfindən oğurlanması son dərəcə acı bir gülüşə vəsilə olur.

Yenə də hekayəyə üz tuturuq:

"Durmuş "işini" görüb bostanına qayıtdı. Üzümü yerbəyer elədi. Bir gilə də ağzına qoyub şirinliyindən ağzını marçıldatdı. Bu üzüm cavan vaxtlarında min bir qorxu və ürək döyüntüsü ilə gecə xəlvət görüşündə nişanlısından aldığı "haram öpüş" kimi ləzzətli idi. Həmlələr pozmuş, qoşun sındırmış, qala fəth etmiş əsgər sevinci ilə Durmuş yatağına girdi."

Qardaşından oğurluq eləyən qardaşı, bax belə təhnizlə, kinayəli yumorla "bəzəyən" yazıçı həqiqətən də ustad bir müəllim kimi "dərs" verir. Həyat dərsi, əxlaq dərsi!

***Dargözlüyün, paxıllığın, tamahın qardaş istəyinə, məhəbbətinə üstün gəlməyi oxucuda acı təəssüf hissi yaradır, son dərəcə acı təəssürat doğurur.***

Heç üzümü oğurlanan Kərbəlayi Tapdıq da qardaşı Durmuşa "borclu" qalmır. Elə həmin gecə o da yuxudan oyanan kimi onun bostanına sürünür:

***"Kərbəlayi Tapdığı elə bil yuxudan oyatdılar. Qaranlıq, sakitlik, yalnızlıq idi. Nağıllarda söylənən tilsimli gecələr Tapdığın yadına düşdü. Göyə baxdı. Səliqəsiz səpilmiş ulduzlar ona qızıl onluqları xatırlatdı. "Nə ola, bu qızıllar göydən qopa, qızıl yağışı yağaydı. Nə qapaqap olardı, fələk! Qıllı papağımı başıma basıb, bir yüzcə dənə yığsaydım birtəhər olardım. Şəhərin göbəyində bir mülk alardım, ya da Namazlıların bağını ələ keçirərdim. İldə on beş-iyirmi min manatlıq təkcə "Təbriz üzümü" satardım. Onda Durmuş da paxıllığından çatlardı. Qoy onda mənimlə ha bəhsə girişsin!***

Kərbəlayi Tapdıq bu dadlı xəyalını udmamışdı ki, nökər qulağına pıçıldadı:

***-Vaxtdır! Vaxt keçir!***

O, yerindən qalxdı, işarə ilə nökərə qandırdı: "Sən o yandan gəl" özü agacların arasından dərəyə endi. Durmuşun bostanına keçdi"

### *Bu qardaşların*

bir-birinə paxıllığının kökündə vərəsəlik hüququnun pozulması, ata mülkündə ədalətli bölgünün olmaması, halallıq şərtlərinin pozulması dururdu.

Bölgüdə Durmuş xali yerə, ürəyindən olmayan yerə sahiblənir. Şikayət edir, "ovladığı bir qazı ətəyinin altında axunda peşkəş aparır. Kərbəlayi Tapdıq da ağzında bir qızıl onluq göstəribmiş. Bağ davası başlananda axund istiot kimi tündləşdi. Kərbəlayi Tapdığın sözünü təstiqlədi. Durmuşun üstünə qışqırdı:

***-Qaz boynu kimi boynunu uzatma, kişi ağzında qızıl kimi söz danışır."***

Durmuş başını aşağı salıb dedi:

***- Eybi yoxdur! Qoy böyük qardaş bağa yiyələnsin, can sağ olar, mən də o xali yerin torpağını qızıla döndərərəm."***

Zəhmətkeş Durmuş dediyinə əməl edib "qanqallı, tikanlı, sarmaşıqlı" yerin altını üstünə çevirib, "yun kimi elədi, arx çəkib su çıxartdı" yerin ətrafında cərgə ilə meyvə ağacları əkdi. Yeri isə hər il dirlik, bostan edib, bol mənfəət götürdü."

Yazıçı qardaşlar arasında yaranmış bu ədavətin səbəbini axundun - qərar çıxaranın rüşvətə boyun əyib ədalətsiz hökm verməsində - onun tamahında görür. Elə qardaşların bir-birindən oğurlamasının da kökündə dayanan nəfsdir, tamahdır. Kənddə bu oğurluq hadisəsi böyük bir səs-küyə səbəb olur. Sovet sədri, sahə müvəkkili işə qarışır. Onların kimdən şübhələndiklərini soruşurlar. Hər ikisi ayrı-ayrı günahsız adamların adlarını verirlər.

Tədqiqat başlayır. Nəticədə məlum olur ki, onların şübhələndiyi adamların bir neçəsi həmin vaxt heç kənddə olmayıb.

Qardaşlar izlənilir, bu şübhəli oğurluğun sorağına düşürlər. Nəhayət hər ikisi oğurladıqları məhsullarla vağzalda yaxalanır:

"Durmuş səbəti yerə qoyub özünü ağacların arasına verdi. Kərbəlayi Tapdıq nökərə him elədi:

***-Gəldilər.***

Özü isə divardan hoppanmaq istəyərkən bir əlin biləyindən yapışdığını gördü. Bu sovet sədri idi. Milis Qələndər isə Durmuşu yaxalayıb gətirirdi. Onlar bu iki qardaşı üzləşdirməyə, məsuliyyətə almağa gətirirdilər".

**Mir Cəlal xalqın içindən çıxmış böyük sənətkar idi. O, bu xalqın həyatını, məişətini, psixologiyasını, mənəvi dünyasını dərindən bildiyi qədər də, onun ayrı-ayrı tiplərinin üzdəniraq cəhətlərinə də diqqət yetirmiş, insanlarda naqisliyin, riyakarlığın, tamahkarlığın, etibarsızlığın insana yaraşmayan sifətlərin köklü səbəblərini axtarmağa çalışmış, qələmə aldığı satirik hekayələrdə bütün bunları ifşa obyektinə çevirmişdir.**

**Rauf Vəliyev**

# Heyrət ey büt...

## Hansı heykəllərə ehtiyac var?

**Heykəltaraşlıq - təsviri incəsənətin bir növü olub, əsərləri həcmli formaya malikdirlər, bərk və ya plastik materialdan hazırlanır. Heykəllərin əsas janrları həcmli portret, tarixi, məişət, simvolik və alleqorik olur. Dünya incəsənətinin önəmli yerlərindən birini tutan heykəltəraşlıq hər dövrdə aktual yaradıcılıq sənətlərindən biri olaraq qalmaqdadır. İnsanı, onun daxili aləmini ifadə etməklə yanaşı heykəltəraşlıq həm də zəmanəsinin ictimai-siyasi hadisələrinə fərqli münasibəti ilə seçilir. Məsələn Fransada ucaldılan barmaq, ABŞ-dakı bir işçinin qeyri-adi heykəli və digərləri. Lakin ölkəmizdə vəziyyət bir qədər başqa şəkildə cərəyan edir. O, da məlumdur ki, ölkəmizdə ucaldılan heykəllər əsas etibarı ilə insanlara, görkəmli şəxslərə itihaf edilən monumental əsərlərdir. Şəhərimizi gəzərkən M.Füzuli, N.Gəncəvi, M.Ə.Sabir, S.Vurğun kimi ədəbiyyat xadimlərinin, görkəmli bəstəkar F.Əmirovun heykəli və bu qəbildən olan digər sənət nümunələrinə rast gəlirik. Lakin bunların arasında bədii kompaziasiyalara, ictimai hadisələrə münasibətin heykəltaraşlıqdakı təcəssümü ilə az rastlaşırıq. Sözsüz ki, bəzi istisnaları çıxmaq şərtilə. Lakin bu istisnalar çox azlıq təşkil edir.**

Misal üçün, bu "istisna"lardan Xocalı faciəsini özündə təcəssüm etdirən komposiasiyanı, habelə, Azərbaycan heykəltəraşlıq məktəbinin uğurlu nümunəsi sayılan "Azad qadın" heykəlini göstərə bilərik. Amma bunlar ölkəmizin heykəltəraşlıq sənətinin inkişafını kifayət edəcək dərəcədə biruzə vermir. Fransanın Henri Matissesi, İspaniyanın Pablo Picassosu olduğu kimi ölkəmizin də İbrahim Quliyevi, Cəlal Qaryağdısı olub. Və indi də çox istedadlı heykəltəraşlar emalatxanalarda "gizlənir". Və onlar varsa, nəyə görə inkişaf və fərqlilik öz sözünü demir? Bu suallara aydınlıq gətirmək üçün **heykəltaraş Sahib Vəliyev**lə görüşdük. Heykəltəraşlıq sənətinin çətinliklərindən söz açan S.Vəliyev hazırda bu sənətə marağın az olduğunu və ən başlıcası sponsor probleminin mövcudluğunu bildirdi: ***"Bizlərin ən əsas problemi maliyyədir çünki, yaratdığımız əsərləri üzə çıxarmaq onların satışını təmin etmək pul tələb edir. Həmçinin emalatxananın özünüdə almaq xeyli baha başa gəlir. Kirayə tutulan emalatxanalarda isə açığı bizi kimi yaradıcı insanların işləməyi çətin olur. Çünki, bilirsən həmin məkan sənə məxsus deyil və rahat olmursan. O tərz şəraitdə isə ürəyin istədiyi kimi əsər yaratmaq mümkün deyil. Həm də düzəltdiyimiz kompaziasiyalar "əlimizdə qalır". Digər bir problem isə müsabiqələrin keçirilməməsidir. Belə ki, şəhərdə hər hansı heykəlin qoyulması nəzərdə tutulanda heç müsabiqə təşkil edilmir. Bu tip problem və əngəllərdir ki, biz heykəltəraşların da iş ruhunu öldürür, əzmini qırır. Öz vəsaitimiz hesabına yaratdığımız əsərləri qa***



***leriyalara təqdim edirik, onların satılıb-satılmaması isə sual altındadır. Əsərlərimizn ən çox alıcıları da xaricilərdir. Pis çıxmasın molla kimiyik. Qrantlardan və müsabiqələrdən isə söhbət getmir. Rəhmətə gedən olanda sifarişlə büst yaxud heykəl düzəldirik. Beləliklə də maddi stimulumuz olmur. Sənətkarlıq işlərimizi, maraqlı kompaziasiyalarımız isə heç kimə lazım olmur, yaratdıqlarımız emalatxanada gün işiğından əriyib yox olur".***

Xaricdə ucaldılan qeyri-adi heykəllərə münasibətini bildirən S.Vəliyev belə əsərlərin ölkəmizdə sifariş edilmədiyini dedi. Onun sözlərinə görə, əziyyətli iş olan heykəl yaratmaq həm də çoxlu maliyə tələb edir və mütləqdir ki, ya dövlət ya da fərdi bir kimsə dəstək olsun. Bir heykəltəraş kimi əsasən insanlara müsbət əhval-ruhiyyə bəxş etməyi sevən sənətkar, bunun üçün imkanlarının olmadığını deyir. Onun dünyasını bəzəyən, marağına səbə olan ən gözəl təbiət nümunəsi isə ağaclardır. Hansı ki, o ağaclar bizləri oksigenlə təmin edir, yayda onların kölgəsində dincəlirik.

Mövzuya münasibət bildirən, **heykəltaraş Arzu Səfiyev** da qeyri-adi mövzuda olan heykəllərin ucaldılmasının tərəfdarı olduğunu söylədi: ***"Bu yaxınlarda İspaniyanın Madrid şəhərində səcdəyə gedən heykəl qoymuşdular".***

**Rəssamlar ittifaqının heykəltaraşlıq bölməsinin müdri Xanlar Əhmədov** Azərbaycanın müstəqillik qazanmasında əməyi olan, vətən uğrunda şəhid olanların heykələrinin ucaldılmasının vacibliyindən danışdı. ***"Bizdə böyük heykəltaraşımız Tokay Məmmədovun hazırladığı bir çox tarixi monumental əsərlər də var. Xarici öləkələrdə qeyri adi heykəllər bolluğu o demək deyil ki, Azərbaycanda da mütləq belə heykəllər ucaldılmalıdır. Mənim şəxsi fikrimi öyrənmək istəyirsinizsə, istirahət parklarında belə hekyllərin qoyulmasının tərəfdarıyam".***

Məsələ ilə bağlı ictimayətin fikrində öyrənməyə çalışdıq.

**Bakı sakini Aidə Aslanova** qeyri adi heykələrin çox olmasının vacibliyini vurğuladı. 65 yaşlı Azər dayı uşaqların bədii zövqlərinin formalaşması üçün cizgi filim qəhrəmanların heykəllərinin ucaldılmasının vacibliyini vurğuladı.

**Aydan Ağayeva** kinonu çox sevdiyini dedi və qeyd etdi ki, kino qəhramanlarının heykəlləri ucaldılmasını məqsədə uyğun hesab edir: ***"Mən Bakının meri olsaydım Teylor Loutherin heykəlin qoydurdurardım".***

**İftixar Admiralov** adlı respondentimiz tarixi şəxsiyyətlərin heykəllərinə böyük yer ayrılmasının tərəfdarıdır: ***"Tarixi şəxsiyyətləri unutmaq lazım deyil. Onlar barədə bildiklərimizi bizdən sonrakı nəsillərə ötürməliyik. Bunun üçündə tarixi şəxsiyyətlərin heykəllərin mütləq ucatmaq lazımdır. Ötən il Koroğlunun heykəli ucadılıb. Amma bəzi müxalifət qəzetləri tənqidi yazılar dərc etdilər. Amma müxalifətçilər niyə görə öz tarixinə xor baxır?"***

**Aysel Abdullayeva** sualımıza cavab olaraq "Azad Qadın" heykəlini çox bəyəndiyini söylədi. Onun sözlərinə görə, sən demə "Azad qadın" heykəlinin memarı olan heykəltəraş Fuad Əbdürrəhmanov şəxsi həyatında elə də xoşbəxt olmayıb:

"Təbii ki, belə adamın arzusunda olduğu qadın heykəli bundan artıq olmazdı".

Özünü **Cəmilə Əsədova** kimi təqdim edən sorğu iştirakçısı söhbət əsnasında heyvanlara heykəl qoyulmasının tərəfdarı olduğunu gizlətmədi: ***"Bütün dünyada heyvan heykəlləri var".***

**İLTİFAT**

## Röyadan Mahirə növbəti dəfə ilgi: "Uğurlu olsun!"



**İki-üç il əvvəl idmanla bağlı tədbirlərin birinə dəvət alan Xalq artistimiz Röya Ayxan gənc futbolçu Mahir Emreli haqqında bu sözləri söyləmişdi:"Mahiri sevirəm. O, gözümün önündə böyüyən uşaq olub. O, öz üzərində çalışdı. Mən inanmırdım. Dedim əşi, balacadı da marağı keçib gedəcək. Mənim qardaşlarım da futbolla maraqlanırdı. Amma onlarda həvəs öldü. Ancaq Mahir sənət kimi seçdi və axıra kimi arxası ilə getdi. Ona görə də, Mahir Mədətovla fəxr edirəm".**

Ötən gün Röya yenə də millimizin hücumçusu Mahir Emreli barədə paylaşım edib.

Adalet.az xəbər verir ki, müğənni şəxsi "instagram" səhifəsində futbolçu ilə fotosunu paylaşaraq "Yeni imzan uğurlu olsun" sözlərini yazıb.

Qeyd edək ki, Emreli Polşanın "Legiya" klubuna keçməyə yaxındır.

## Biabırçı fotoşopun məşhur qurbanları: Azərbaycan şou nümayəndələridə bura daxildir



**Texnologiya günbəgün inkişaf edir. Artıq fotoşop proqramları o qədər asanlaşıb ki, şəkillərə istənilən korrektəni etmək üçün professional olmağa ehtiyac yoxdur. Bundan sui-istifadə edən dünya ulduzları xüsusilə "İnstagram"da paylaşdıqları fotoların çoxuna əl gəzdirirlər. Rəqiblərindən daha gözəl, daha incə görünmək istəyən ulduzlardan kimi belini, kimi ayaqlarını incəldir, bəziləri də ombasını dikləşdirir. Üstəlik, bunu sadəcə artıq çəkidən əziyyət çəkənlər etmir. Beyons, hətta Miranda Kerr kimi ideal görkəmə sahib olanlar belə fotosopun imkanlarından yararlanır.**

Gözəl və cazibədar görünməyin ən asan yolunu tapan ulduzlar ideal görkəmə qovuşmaq üçün özlərinə deyil, şəkillərinə əl gəzdirir, idmanla məşğul olmaqdansa, fotoşopla özlərini kəsib-biçməyə üstünlük verirlər.

Adalet.az xəbər verir ki, son günlər türkiyəli rəqqasə Asena İnstaqram hesabında etdiyi paylaşım ilə gündəmə gəlib. Güzgünün önündə şəkil çəkdirən rəqqasəni izləyicilər fotoşop etməkdə günahlandırıblar. Fotoda Asenanın üzünün aynadakı əksi ilə fərqli olması sənətçinin tənqid olunmasına səbəb olub.

Bu gün isə aparıcı Seren Serengil sosial şəbəkə paylaşımı ilə gündəmə gəlib.Çimərlik geyimi markasının çəkilişləri üçün fotokamera qarşısına keçən aparıcı bikinili şəklini fotoşop edib. İzləyicilər fotoya "o biri ayağını unutmusan", "robot kimisən", "sağ ayaq soldakının yarısı olub" kimi şərhlər yazıblar.

Qeyd edək ki, Azərbaycanın şou-biznes nümayəndələri də zaman-zaman belə biabırcı fotoşoplarla gülüş hədəfinə çevrilmişdilər. Xalq artisti Nazpəri Dostəliyeva, Əməkdar artistlər Könül Kərimova, Nüşabə Ələsgərli, Gülüstan Əliyeva, Elza Seyidcahan, müğənnilər Nadir Qafarzadə, Rəqsanə İsmayılova, Nazənin, Xatirə İslam, aparıcılar Zemfira Adıgözəlova, Mətanət Əliverdiyeva, aktrisa Çimnaz Sultanova və başqalarının adını çəkə bilərik.

**Ə.Rəşid**

## Rəqsanənin "Rusiyada toy biabırçılığı" paylaşımına cavab: İlhamə Qasımovadan...

**Əziz oxucular, artıq hamınız bilirsiniz ki, pandemiya ərəfəsində Əməkdar artist Mətanət İsgəndərli, müğənnilər Şəbnəm Tovuzlu, Zenfira İbrahimova, Fədayə Laçın, Damla, Kərim Abbasov və başqaları Rusiyaya köçərək, orada işləməyə başlayıblar. Amma bəzi insanlar var ki, həmin müğənnilərin özünü Rusiya da çox əxlaqsız şəkildə ictimaiyyətə təqdim edir və Azərbaycanın adına layiq olmayan hərəkətlərə rəvac verirlər.**

Müğənni Rəqsanə İsmayılova Rusiyaya köçərək orada yaşayan və Rusiyalı azərbaycanlıların dəvəti ilə onların toy, nişan, ad günü və digər məclislərində oxuyan azərbaycanlı sənətçilər haqqında son günlər xoş olmayan açıqlamalar verirdir.

Xalq artisti Səməd Səmədov həmkarını bu açıqlamasına görə qınamışdıda.

Müğənni İlhamə Qasımova da Rəqsanə İsmayılovanın cavabını verməyi özünə borc bilib.

Adalet.az xəbər verir ki, bu haqda İlhamə "ATV maqazin onlarla"da danışıb. O bildirib ki, vaxtı ilə





Rəqsanə ilə aralarında söz atışması olub. "Atışma"ya da səbəb isə İlhamənin Rəqsanənin "Bivəfa" mahnısını ələ salması olub:

"Çal-çağır" verilişində mahnını əyə-əyə oxudum. Yadımda qalan yeganə mahnı o idi. İnciməyə dəyməzdi. Küsdü, haqqı var. Mən onun yaradıcılığına sataşmışam, o da cavabımı Verdi. Elə o vaxtdan bir-birimizlə küslüyük". İlhamə Rəqsanənin Rusiyada işləməyə gedən müğənnilərlə bağlı dediyi qalmaqallı sözlərə də münasibət bildirib:

***"Xoşuma gəlməyən bir şey oldu ki, Rusiyaya gedən müğənnilər haqda nələrsə dedi. Söhbət namus-qeyrətdən gedirsə, bir xanım olaraq o sözü yaymamalı idi. Təklikdə deyərdi ki, bu işi görmə. Dırnaqarası qonşularımızın yaşadığı ortamda bir-birimizi dəstəkləməliyik. Sosial şəbəkədə dediklərimizə fikir verməliyik, dünya izləyirik. Kardaşyanlar bir-birini qırır, vurur. Onlar bir-birini sillələməklə gündəmə gəlsinlər.***

***Rusiyaya gedənləri qınamaq olmaz. Biri deyir, göyərti qiymətinə gedir. Çox pis oldum. Pul qazanmırlar, ailə saxlayırlar. Üç, beş uşağı var, hamısının milyonu var. Deyirlər, maşınını sat. Satdı, alan var? 50 minlik maşını 30 minə satan var, alırsan? Heç kim özünü aşağı qiymətə sata bilməz".***

Qeyd edək ki, müğənni Rəqasanə İsmayılova sosial şəbəkədə bu ittihamları paylaşmışdı :" ...bura gələn bəzi müğənnilər, xahiş edirəm, toydan sonra gedin evinizdə yatın, başqa yerə getməyin. Allah sizə bir parça çörək verib. Əri, həyatında kimsə olan insan artıq hərəkət etməməlidir. Edirsənsə, o kişi nəyə lazımdır? Pula görə özünüzü hörmətdən salmayın. Gəlmisiz məclis oxuyasınız, başqa hərəkətlər etməyə gəlməmisiniz. Sözüm kimədirsə, götürəcək. Üç-dörd gün əvvəl eşitdiyim sözə görə bunları deyirəm. Əgər yenə eşitsəm, həmin insanların adını açıqlayacam, deyəcəm, yiyələri gəlib onları buradan aparsın!"

**Əntiqə Rəşid**

## *Çempionatımız bu tarixdə başlayır*



*Azərbaycan Premyer Liqasında 2021/2022-ci illər mövsümünün başlama vaxtı müəyyənləşib.*

*Bununla bağlı Peşəkar Futbol Liqasının (PFL) rəsmi saytı xəbər yayıb. PFL-in qərarına əsasən yeni mövsüm avqustun 14-də başlanacaq.*

*Qeyd edək ki, yarışda ötən mövsüm olduğu kimi, bu mövsüm də 8 komanda - "Neftçi", "Qarabağ", "Sumqayıt", "Zirə", "Sabah", "Keşlə", "Səbail" və "Qəbələ mübarizə aparacaq.*

## *"Neftçi"də daha bir müqavilə*




*"Neftçi" futbolçusu Turan Vəlizadə ilə müqavilənin müddətini artırıb. Qol.az xəbər verir ki, anlaşmaya əsasən, 20 yaşlı yarımmüdafiəçi 2023-cü il mayın 31-dək "ağqaralar"a məxsus olacaq. 2020/2021 mövsümünü icarə əsasında "Keşlə"də keçirən Vəlizadə daha 1 il müddətinə bu kluba icarəyə verilib. Qeyd edək ki, Turan Vəlizadə 2018-2020-ci illər ərzində "Neftçi"nin heyətində 2 rəsmi oyunda meydana çıxıb.*

*Xatırladaq ki, "Neftçi" Rəhman Hacıyevlə də müqavilənin uzadıldığını və onun yenidən "Keşlə"yə icarəyə verildiyini də açıqlayıb.*

## Elgiz Əkbər ağladı: "O, mənə eybəcər dedi "

**Tanınmış aparıcı Elgiz Əkbər "Onun sirri" proqramında maraqlı bir açıqlama verib. O, ünvanına "eybəcər" sözünü deyən Xalq artistindən danışıb:"Bir adamı təhqir etmək olmaz. Xalq artisti haqqımda müsahibə verib, məni yıxıb sürüyüb. Bir adam da mənə zəng edib bunu demir. Qonşumuzda bir jurnalist yaşayır. Anamla atam evdə oturub, yaşlı adamlardır. Jurnalist gəlib qapını döyüb, başlayıb çox üzüldüm. Sizin oğlunuz haqda Xalq artisti müsahibə verib, nə günə qoyub. Anam təəccüblənib, oxuyub. Anam əlində qəzet, yaxınlaşıb yazıq atama. Oxuyub anam ağlayıb, atamın halı pisləşib ".**

Adalet.az xəbər verir ki, Elgiz bildirib ki, həmin Xalq artisti Elxan Qasımov olub. "Əhməd haradadır" filminin "Şofer Əhməd"i aparıcı haqda "eybəcər" ifadəsini işlədib.

Aparıcı bu sözləri söylədikdən sonra həm də ağlayıb:"İndi atam dünyasını dəyişməsəydi bunu danışmazdım. Vecimə almazdım. Bunu atam rəhmətə getdiyi üçün danışıram. Atam əynini geyinib ki, gedib o, Xalq artistini tapmağa. Bir tanışı var idi kinostudiyada sürücü olub. Ona yığıb ki, həmin Xalq artistini tapmalıyam.

Atama məsləhət görüb ki, qarışma. Həmin Xalq artistinə indiyənə qədər cavab verməmişəm. Ola bilər aparıcılığımı bəyənməsin, amma onu peşəkar hesab edirəm. Niyə məni təhqir edirsiz?

Nələrsə deyib, sonda isə vurğulayıb: belə eybəcər efirdə ola bilməz. Dəhşətə gəldim ki, belə söz deyib? Bu insanlar görüşəndə ən az 10 dəqiqə bir-birimizə nə qədər sözlər deyirdik. Onun oğlu dünyasını dəyişib, onu gözəl tanıyırdım. Ona atamın dilindən cavab verərdim, amma etmədim.





Oğlunu itirən bir atanın qəlbi ağrıyardı".

**Qeyd edək ki, Elgiz Əkbər 1974-cü ildə Rusiya Federasiyasının Yaroslavl vilayətində anadan olub. Bakı kommersiya məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət İqtisad Universitetinin qeyri-ərzaq malları üzrə əmtəəşünaslıq fakültəsində təhsilini davam etdirib. İqtisadiyyatla bağlı məqalələrlə mətbuata gəlib, sonradan mədəniyyət yazarı kimi tanınıb. Uzun müddət saytlarda, jurnallarda redaktor müavini, qəzetlərdə isə redaktor işləyib. 2007-ci ildə ANS TV-də "Bağlama" verilişinin aparıcısı kimi fəaliyyətə başlayıb. "Bağlama" "Elgizin Cümə Axşamları" "Elgizli Axşamlar" "Toy Olsun", "Sən Tək Deyilsən" , "Xoşqədəm Hidayətqızı ilə birlikdə", "Adam içində", "Günəbaxan" ,hazırda isə ARB TV-də "Elgizlə İzlə" verlişinin aparıcısıdır.**

Əntiqə

## *Bu həftə ÇL-dən kənarlaşdırıla bilərlər*



*UEFA "Barselona", "Real" və "Yuventus"un bu həftə Çempionlar Liqasından uzaqlaşdırması barədə qərar verəcək.*

*Qol.az xəbər verir ki, buna hər üç klubun Avropa Superliqasını yaratmasında fəal iştirakı səbəb olub.*

*Qeyd edək ki, adları çəkilən klublar hələ də superliqadan çəkildiklərini açıqlamayıblar.*

*Xatırladaq ki, daha əvvəl superliqada Avropanın 12 klubu iştirak edəcəyini təsdiqləmişdi. Bunlar "Real", "Barselona", "Atletiko" (hamısı İspaniya), "Mançester Siti", "Mançester Yunayted", "Liverpul", "Çelsi", "Arsenal", "Tottenhem" (hamısı İngiltərə), "Yuventus", "İnter" və "Milan" (hamısı İtaliya) idi. Lakin UEFA-nın sərt sanksiya xəbərdarlığından sonra "Real", "Barselona" və "Yuventus" istisna olmaqla digər 9 klub yarışdan imtina etdiyini açıqlayıb.*

**Manafov Məcid Osman oğlunun adına verilmiş 043431 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Abbasova Mehriban Telman qızının adına Xızı rayonu, Altıağac qəsəbəsində 22.07.11-ci il tarixində 1411008937 nömrəli 0.20 hektar torpaq sahəsi üçün verilmiş sənəd itdiyi üçün etibarsız sayılır.**

***

**Nərimanov rayon Polis İdarəsi tərəfindən 1965-ci il təvəllüdlü Mustafayeva Yeganə Vəli qızının adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 100
Çapa imzalanmışdır: 02.06.2021